2015

Güləmail Murad

Dağlarda şəhid səsi

Poetik toplu

www.kitabxana.net

Milli Virtual-Elektron Kitabxananın
təqdimatında

"Çağdaş Azərbaycan poeziyası". Elektron
Kitab N : 11 (46) - 2015

Bu elektron
nəşr http://www.kitabxana.net - Milli
Virtual-Elektron Kitabxananın "Çağdaş
Azərbaycan poeziyası" Kulturoloji-bədii
layihəsi çərçivəsində nəşrə hazırlanıb və
yayılır. Kulturoloji layihənin maliyyələşdirən
qurum: Yeni Yazarlar və Sənətçilər Qurumu -
http://www.yysq.org

YYSQ
www.kitabxana.net
11.02.2015

GÜLƏMAİL MURAD

DAĞLARDA ŞƏHİD SƏSİ

Sumqayıt-2014

Məsləhətçi: Osman Musayev
Atatürk Mərkəzinin direktor müavini,
«Dəli Kür» qəzetinin baş redaktoru.

Redaktor: **Öttərxan Eltac**
Şair-jurnalist

Korrektor: Arifə Alıyeva

GÜLƏMAİL MURAD
DAĞLARDA ŞƏHİD SƏSİ

Bu kitabda mən iki obraz gördüm. Bir ana - qadın olan Güləmail, bir də şair səciyyəsi olan şair Güləmail Murad. Hər ikisi yüksək vətəndaş duyğusu ilə bir-birini tamamlayır. Bir-birinə arxa, dayaq olur.

İnanırıq ki, ədəbi, bədii, avtobioqrafik, tarixi, sənədli səciyyə daşıyan bu kitab orta məktəblərimiz və digər təhsil müəssisələrimiz üçün çox vacib əyani vəsait olacaq.

Sumqayıt, “Bilik” nəşriyyatı, 2014, 168 səh.

$$D\frac{525000-348}{398-09}M$$

“Bilik” nəşriyyatı, 2014

UĞUR HƏYATIN NƏŞƏSİDİR

İSAYEVA GÜLƏMAİL NOVRUZƏLİ QIZI (GÜLƏMAİL MURAD)

Ağstafa rayonunun (keçmiş Qazax) Sadıqlı kəndində anadan olub. 1973-cü ildə Azərbaycan Dövlət Neft-Kimya İnstitutunu (İndiki Azərbaycan Dövlət Neft Akademiyası) bitirib. Ali dərəcəli mühəndis-müəllimdir. Hal-hazırda Bakı Dövlət Neft-Energetika Kollecində mühəndis-müəllim işləyir.

"Güldüm göynəyə-göynəyə, "Sənli - sənsiz", "Gecələr ulduzlar üstümə tökülür","Qarabağ harayı", "Anasızlıq fəryadı", "Qələmim əlimdə lələkdən idi", "Yazmadıqlarım qapımı döyür","Vətən sağ olsun", "Balaca müdrik", "Sevgi dastanı" və"Dostluq Körpüsü" şeir, hekayə, esse kitablarının müəllifidir. Şeirləri bir neçədilə tərcümə edilməklə yanaşı, musiqi də bəstələnib. Azərbaycan Yazıçılar Birliyi vəAzərbaycan Jurnalistlər Birliyinin, Respublika Qadınlar və Dünya Türk Qadınlar Cəmiyyətinin üzvüdür. Güləmail Murad Dünya Azərbaycanlıları Mədəniyyət Mərkəzinin İdarə Heyətinə üzv vəQadınlar Şurasına sədr müavini seçilib (2007).

İİR Mədəniyyət Mərkəzinin "İmam Rzanın doğum günü və Həzrəti Məsumə" ilə bağlı Urmiyada keçirilən Beynəlxalq şeir müsabiqəsinin qalibi olaraq Fəxri diploma layiq görülüb (2007).

2006-cı ildə “Sənli - sənsiz” şeir kitabı ilin “Lirika kitabı” Fəxri diplomuna layiq görülüb. 2009-cu ildə “Oskar-Ozan” Mükafatı Fəxri Diplomu ilə təltif edilib. 2010-cu ildə Türkiyədə, Əskişəhərdəki Şairlər Dərnəyinin “Onur Belgesi” diplomuna sahib olub, Misir Mədəniyyət Mərkəzi tərəfindən “Təşəkkürnamə” və “Fəxri fərman”la təltif edilib.

Gürcüstanın Qardabani şəhərindəki 3 saylı ictimai məktəb tərəfindən (2011) və eləcə də, Ağstafa rayon Mədəniyyət və Turizm şöbəsi tərəfindən “Fəxri Fərman”a layiq görülüb (2012).

“Əliağa Şıxlınski”, “Cəfər Cabbarlı”, “İti qələm”, “Borçalı” və “Zirvə” ziyalılar təşkilatının “Vicdanlı qələm”, “Məhsəti”, “Qaratel”, “İsmət”, “Əsrin ziyalıları”, “Vətən Naminə” kimi müxtəlif fəxri diplomlara, mükafatlara və təşəkkürnamələrə layiq görülüb. “Məhsəti”, “Məcməüş-şüəra”, “Vahid” ədəbi məclisinin və “Bura Vətəndir” cəmiyyətinin üzvüdür. Şairə Güləmail Murad Azərbaycan Sərhəd Mühafizəsinin 93-cü ildönümünə həsr olunmuş müsabiqənin bədii-ədəbiyyat nominasiyasında 2-ci yeri tutaraq Fəxri diplomla təltif olunub. 2013-cü ilin may ayında şairəyə Beynəlxalq “Rəsul Rza” ədəbi mükafatı verilib. Azərbaycanın Milli Qəhrəmanı Rafiq Alıcanova həsr edilmiş “Vətən sağ olsun” kitabına görə isə, H.B.Zərdabi mükafatına layiq görülüb.

Prezident təqaüdçüsüdür.

BİR DAMLA GÖZ YAŞI

Oxucum bilirmi nələr gizlənib
Gözümdən süzülən bir damla yaşda.
Qəm-qüssə gizlənib, kədər gizlənib,
Gözümdən süzülən bir damla yaşda.

Bütöv Azərbaycan hicranı vardır
Yaralı Qarabağ məkanı vardır,
Şəhid oğulların fəğanı vardır,
Gözümdən süzülən bir damla yaşda.

Haqsız adamların haqsız savaşı
Didərgin kəslərin necə tələşı
Yetim balaların gözünün yaşı
Gözümdən süzülən bir damla yaşda.

Nisgilli eşqimin hekayəti var
Həsrətli çağların məlaməti var
Yaralı qəlbimin şikayəti var
Gözümdən süzülən bir damla yaşda.

Qəlbimdə qəm, sevinc təndi, gəl ayır
Qələbə müjdəsi yerində sayır
Güləmail Vətən dərdi yaşayır
Gözümdən süzülən bir damla yaşda.

YAZILMAYAN ƏSƏRİMİ YAZ, QƏLƏM!

Güləmail Muradın "Dağlarda şəhid səsi" kitabına ön söz

Güləmail Murad imzası geniş oxucu kütləsinə yaxşı tanışdır. Mən də uzun illərdir onu tanıyır, dövrü mətbuatda şeirlərini maraqla izləyirəm.

Bir neçə gün öncə mənə verdiyi "Dağlarda şəhid səsi" kitabının əlyazmasını oxudum və qənaətim bu oldu ki, doğrudan da, Güləmail Murad vətəndaş şairdir. O bir ana kimi, bir Azərbaycan qadını kimi öz duyğu və düşüncələrini şair təxəyyülünün süzgəcindən keçirərək, onu ədəbiyyat materialına çevirə bilir. Bu kitabda mən iki obraz gördüm. Bir ana, qadın olan Güləmail, bir də şair səciyyəsi olan şair Güləmail Murad. Hər ikisi yüksək vətəndaş duyğusu ilə bir-birini tamamlayır. Bir-birinə arxa, dayaq olur. Şəhidlərimizi ağlayan Güləmail, nəticədə şəhidlərimiz üçün gözəl şeirlər, poemalar, esselər, hekayələr yazan və onların adlarını ədəbiyyatda əbədiləşdirən şair Güləmail Murada çevrilir.

Bu kitab təkcə şeir kitabı deyil. Ədəbi, bədii, avto-bioqrafik, tarixi, sənədli səciyyə daşıyan bu kitab orta məktəblərimiz və digər təhsil müəssisələrimiz üçün çox vacib əyani vəsait ola bilər. Burada təkcə söhbət Güləmailin kəndi Ağstafa rayonu Sadıqlı kəndinin 10 şəhidindən getmir. Burada əsas

məsələmüharibənin və şəhidin fəlsəfəsidir. Şairin dünyaya yeni baxışıdır. Baxın, Sadıqlı kəndinin şəhidlərinə. Düz 10 nəfərdir.

Bayramov Rəhman Dursun oğlu
Bayramov Habil Şahvələd oğlu
İbrahimov Nazim Tofiq oğlu
Xələfov Qərib Telman oğlu
Məmmədov Məmməd Qara oğlu
Nuriyev Zabit Şamil oğlu
Ramizov Məcid Binəli oğlu
Əhmədov Əhməd Paşa oğlu
Əfəndiyev Mahir Əhməd oğlu
Omarov Ariz Nəriman oğlu

Güləmail Murad kitabda şəhidlərin tərcümeyi-halını yazmaqla yanaşı, həmçinin onların hər birinə şeir həsr eləyib. Onların həm tarixi, həm də bədii obrazını yaradıb. Məncə, hər bir yazıçı, qələm adamı öz kəndinin, bölgəsinin şəhid tarixini yazmalıdır və onların adları fiziki coğrafiyadan öncə, ədəbiyyat sahəsindəəbədiləşməlidir. Güləmail Murad təkcə Sadıqlı kəndinin şəhidləri ilə kifayətlənməyib, o həm də Azərbaycanımızın digər bölgələrindən olan şəhidlərin nakam taleyini yazıçı ustalığı ilə qələmə alıb.

Güləmail Murad deyir: "Şəhidlərin hamısı eyni yaşdadır". Kitabın əsas ideyası kimi səslənən bu

fikir özündə çox böyük mətləbləri ehtiva edir. Dəxli yoxdur, şəhid 20–ci əsrin əvvəlində və ya sonundadır. Babəkin dövründədir və ya 21-ci əsrin əvvəlində. Fərqi yoxdur, şəhid həmişə şəhiddi, şəhidin köhnəsi və yenisi yoxdur.

Ona görə də Güləmail Murad Azərbaycanın başına gətirilən bəlaları təkcə yaxın keçmişlə bağlamır. O tarxin dərinliklərinə səyahət edir. Bu günü keçmişlə bağlayır. Bu gün keçmişin üzərində bərqərar olur. Şairin aşağıdakı iki misrasını kitabın proloquna bənzətmək olar.

Fərrux dağından
Yol alıb yola düzəldim...

Fərrux dağından yol başlayan şair Babək dövrünə qədər gedib çıxır. Kitab da Azərbaycan xalqının mübarizə tarixini sərgiləyir. Güləmail bu tarixi səfərdəədəbi uğur qazanır. Ona görə ki, o, öz səfərini milli ruhumuzun dirçəlişi olan Fərrux dağından başlamışdır.

Kitabda şəhid anaları Zöhrə və Bənövşənin ana harayı vətən oğullarını vahid bir cəbhədə birləşməyə səsləyir. Bu haraydan doğan bir nida var: “Qoymayın vətəni şəhid olmağa.”

...Kitabda bütöv Azərbaycanın xəritəsi verilib. Hər başlığa uyğun şəkillər seçilib.

Güləmail xanım istər publisistik, istərsə də lirik şeirlərində doğulub boya-başa çatdığı Sadıqlı kəndinə böyük inam və məhəbbət bəsləyir.

Gül – çiçək burda da göz oxşamada,
Burda da qəlbimi söz oxşamada.
Di gəl ki, həmişə düşürsən yada,
Sadıqlım mənim!

Çeyrançöl adlanan guşə bir yanda,
Quzular döşənib döşə bir yanda,
Qarayazı adlı meşə bir yanda,
Sadıqlım mənim!

Amma şairin sevgisi təkcə öz kəndi ilə tamamlanmır, onun vətən məhəbbəti bir kəndin timsalında bütöv Azərbaycan sevgisinə çevrilir.

Kitabda şəhidlərin doğum və ölüm tarixindən sonra, şair sanki ruhunun əzilmiş qanadları ilə çırpınır.

Neylim, canda qüssə, fəğan yaşadı...
Üzülsə də yenə bu can, yaşadı.
Güləmail yaxşı – yaman yaşadı,
Vaxt – vədəsiz solanları neyləyim?

Şair ana taleyini yaşayır bu misralarda. Bir az yorulsa da, bir az ruhdan düşsə də, onun misralarının altında vulkan yatır.

Kitabdakı yazıların dili oxunaqlıdır, emosinaldır. Bəzən dramatizm, təhkiyələr Dədə Qorqudun dilinə qədər gedib çıxır.

Oy... oy... oy... oy Vətən!
Torpağı şəhidli Vətən!
Neçə -neçə igidli Vətən!

Şair Azərbaycanda gedən müharibənin məğzini bütünlüklə türkçülük kontekstində görür. Ona görə şairin Qafqaz İslam Ordusunun Azərbaycana gəlməsinin 90 illiyi münasibəti ilə yazdığı şeiri maraq doğurur.

Azərbaycanın Milli Qəhrəmanı Rafiq Cəfər oğlu Alıcanova həsr etdiyi "Hara gedirsən belə?", Azərbaycanın Milli Qəhrəmanı Gültəkin Əsgərovaya " Gültəkin zirvəsi", "Hacımahmudova Qaratelin 65 illiyinə" poemaları və Azərbaycanın Milli Qəhrəmanı, sərhədçi əsgər, baş leytenant Məmmədov Eldar Harun oğlunun xatirəsinə yazdığı, Dövlət Sərhəd Xidmətinin müsabiqəsində ikinci yerin qalibi olmuş "Qəhrəmanlıq dərsi" hekayəsi sənətkarlıqla yazılmış realist əsərlərdir. Hesab edirəm ki, bu əsərlər gənclərimizdə vətənpərvərlik hislərini formalaşdırır, onlarda vətənimizə, dövlətimizə, dövlətçiliyimizə məhəbbət duyğularını daha da gücləndirir.

Kitabın sonunda Güləmail Murad qələminə müraciətlə deyir:

Heç bilirsən nələr yazmaq istərəm?!
Qələbədən xəbər yazmaq istərəm!
Neçə - neçəəsər yazmaq istərəm,
Yazılmayan əsərimi yaz, qələm.

Mən də inanıram ki, bu qələm qədirbilən oxucularımıza çox maraqlı bir kitab yazıb və gələcəkdə də maraqlı əsərlər yazacaqdır.

Nizami Cəfərov,
AMEA-nın müxbir üzvü,
əməkdar elm xadimi, f.e.d., professor,
Milli Məclisin üzvü

SÖZ ARDI...

Şəhidlər haqqında şairə xanım Güləmailin yazdığı bu kitab şəhidlərimizin ruhu qarşısında layiqli hesabat kimi qiymətləndirilə bilər.

Kitabda şəhid anası Zöhrə ilə Bənövşənin ana harayı şairə anaların övladlarını düşmənə qarşı mərdliklə vuruşa çağırır, vətənin dar günündə vətən torpaqlarının hər qarışı uğrunda əzmlə müdafiə etməyə səsləyir.

Yaralı yoldaşlarını döyüş bölgəsindən uzaqlaşdırarkən sonuncu xilasetmə məqamında Əhməd Əhmədovun itkin düşməsiəsərdə yüksək bədii ifadəsini tapmışdır.

Bu kitabla şairə xanım şəhidlərmizin qəhrəmanlıqlarını təsadüfi deyil, məhz öz keçmiş qəhrəman babalarının - Ması, Meqi və Mustafaların 1905-1907-ci illərdə erməni alçaqlarına qarşı döyüşənənələrinə sadiq qaldıqları da yüksək bədii ifadənin təzahürüdür.

Odur ki, bu əsər təhsil ocaqlarında tədris edilməklə yanaşı, gələcək nəslin yüksək vətənpərvərlik ruhunda tərbiyə olunmasına, o cümlədən, yeri gələndə vətən uğrunda candan keçməyə hazırlıq üçün yazılmış yüksək bədii keyfiyyətə malik olan xidməti kitablardandır.

Sadıqlı kənd orta məktəbinin keçmiş direktoru Vəli Səməd oğlu Abdullayev

AZƏRBAYCANIMIZ BƏNZƏRSİZ ÖLKƏDİR. BİZ BU BƏNZƏRSİZLİYİ QANİÇƏN YADELLİLƏR TƏRƏFİNDƏN HƏMİŞƏ LAYİQİNCƏ QORUMAĞA ÇALIŞMIŞIQ. BU GÜN DƏ İŞĞAL OLUNMUŞ TORPAQLARIMIZI DÜŞMƏNDƏN AZAD ETMƏK ÜÇÜN QÜDRƏTLİ VƏ PEŞƏKAR ORDUMUZUN GÜCÜNƏİNANIRIQ.

ÖLKƏMİZİN GƏNC, YORULMAZ ALİBAŞ KOMANDANI, MÖHTƏRƏM PREZİDENTİMİZ İLHAM ƏLİYEV CƏNABLARI ORDUMUZUN GÜCÜNƏ ARXALANARAQ DEMİŞDİ:

"BİZİM GÜCLÜ DÖVLƏTİMİZ VAR,
BİZİM GÜCLÜ ORDUMUZ VAR!"

Ey Azərbaycan əsgəri, Vətən sənin lə güclüdür!

Vətəni qoru...
Hələ də torpaqlarmız işğal altındadır...
Qoymayın Vətəni şəhid olmağa...

Azərbaycan Demokratik Respublikasının (1918-1920) və Azərbaycan Respublikasının uyğun inzibati-ərazi vahidləri

QAN YADDAŞIMIZ

TARİXİN SİLİNMƏYƏN LƏKƏSİ

XANKƏNDİ	**----**	**26.12.1991**
XOCALI	**----**	**26.02.1992**
ŞUŞA	**----**	**08.05.1992**
LAÇIN	**----**	**18.05.1992**
XOCAVƏND	**----**	**02.10.1992**
KƏLBƏCƏR	**----**	**02.04.1993**
AĞDƏRƏ	**----**	**07.06.1993**
AĞDAM	**----**	**23.07.1993**
CƏBRAYIL	**----**	**23.08.1993**
FÜZULİ	**----**	**23.08.1993**
QUBADLI	**----**	**31.08.1993**
ZƏNGİLAN	**----**	**29.10.1993**

AZƏRBAYCANIM, YAŞA!

Ürəkdə qüdrətimsən,
Əməkdəşöhrətimsən,
Biləkdə qüvvətimsən,
Damarda qanım, yaşa,
Azərbaycanım, yaşa!

Qızıla zərdeyiblər,
İgidəərdeyiblər,
Oda Azərdeyiblər,
Azər cahanım, yaşa,
Azərbaycanım, yaşa!

Çox olubdu dərdlərin,
Az olmayıb mərdlərin,
Saysızdır comərdlərin,
Comərd məkanım, yaşa,
Azərbaycanım, yaşa!

Əzabım çoxalanda,
Ümidim yox olanda,
Son anda, son gümanda,
Sənsən gümanım, yaşa,
Azərbaycanım, yaşa!

Arxam, həyanım olmaz,
Tabım, tavanım olmaz,
Olmasan, canım olmaz.
Ay mənim canım, yaşa,
Azərbaycanım, yaşa!

DAĞLARDA ŞƏHİD SƏSİ

Dağlardan şəhidlərimizin
səsi gəlir,
Eşidirəm o səsləri...
Karmısınız, ay dağlar,
Məgər eşitmirsiniz?
Sizdən şəhidlərimizin
qisas nəğməsi gəlir...
Sizdən şəhidlərimizin
səsi gəlir, ay dağlar!
Şəhidlər sərhəddi vətənə!

Şəhiddən başlayır vətən,
Şəhiddə bitir vətən sərhədləri...
Ey vətənimin soydaşları!
Ey millətimin şəhidləri!
Qalxın, qalxın, qollarınızı
dolayın boynuma
sərhəd kimi.
Qalxın, birlikdə keçək hücuma,
Dayanaq vətənin keşiyində!
Şəhidlər oyaqdı vətən sərhədində...

Bu görüş nə görüşdü?!
Qara bir buludam,
Gözlərimdə qan...
Ey insanlar, oyanın!
Vətənin keşiyində dayanın.
Şəhidlər üşüməsin...

Eşitsin ana vətən.
Bilsin bütün insanlar!
Ürəyim göynəyir,
Sinəmdə yara...
duz basılmış kimi,
Sinə daşım göynəyir.
Yurdumun dağı, daşı göynəyir.
Oyanın, şəhidlərim, oyanın!
Siz ölməmisiniz!
Toxum olub yerəəkilmisiniz!
Təzədən cücərib, göyərmisiniz!..

Siz vətənin ən böyük sərhədisiniz!
Ey şəhidlərim, oyanın!
Durun ayağa!
Şəhidlik qismətinizdir.
Qoymayın vətəni şəhid olmağa...

AĞSTAFA TORPAĞI

Ellərin vüqarıdır,
Dillərin şüarıdır,
Təmizlik diyarıdır,
Paklıq, səfa torpağı-
Ağstafa torpağı.

Vəfalıdır dostlara,
Düz əhdə, saf ilqara,
Bütün vəfadarlara,
Bura vəfa torpağı-
Ağstafa torpağı.

Gəlsəəgər düşməni,
Müxənnəsə, yağıya
Bu yurd cəza məskəni,
Bu yurd cəfa torpağı -
Ağstafa torpağı.

Suyu ələm dağıdır,
Havası qəm dağıdır.
Sağlamlıq ocağıdır,
Bu yer şəfa torpağı-
Ağstafa torpağı.

SADIQLIM MƏNİM

Bakıda darıxıb anıram səni,
Sadıqlım mənim!
Yadıma salıram gülü, çəməni,
Sadıqlım mənim!

Gül – çiçək burda da göz oxşamada,
Burda da qəlbimi söz oxşamada.
Di gəl ki, həmişə düşürsən yada,
Sadıqlım mənim!

Çeyrançöl adlanan guşə bir yanda,
Quzular döşənib döşə bir yanda,
Qarayazı adlı meşə bir yanda,
Sadıqlım mənim!

Yadıma kimlərin-nələrin düşür,
Budaqlar dolusu bəhərin düşür,
Dəmadəm axşamın, səhərin düşür,
Sadıqlım mənim!

Səslə ki, yanına gələ mailin,
Sənin qucağında ölə mailin.
Çıxmırsan yadından Güləmailin,
Sadıqlım mənim!

HAYDI, İGİDLƏRİM, VƏTƏN YAŞASIN!

"VƏTƏN YAŞASIN..."verilişinin müəllifi şair-jurnalist Ötərxan Eltaca ünvanlanıb

Döyüşə səsləyir bu şüar bizi:
Haydı, igidlərim, **Vətən yaşasın!**
Əzmimiz zəfərə aparar bizi,
Haydı, igidlərim, **Vətən yaşasın!**

Vətən qolumuzdu, qanadımızdı,
Vətən düyünümüz, büsatımızdı,
Vətən ömrümüzdü, həyatımızdı,
Haydı igidlərim, **Vətən yaşasın!**

Bağbanı əzilsə, düzən basılsa,
Gülşən əldən çıxsa, çəmən basılsa...
Torpağa basıllıq vətən basılsa,
Haydı, igidlərim, **Vətən yaşasın!**

Murada hünərlə biz çatmalıyıq,
Düşmənin başına daş atmalıyıq,
Vətəni həmişə yaşatmalıyıq
Haydı, igidlərim, **Vətən yaşasın!**

Çöhrəmiz gül kimi, əgər solsa da,
Ömür piyaləmiz qanla dolsa da,
Yolunda canımız qurban olsa da,
Haydı, igidlərim,**Vətən yaşasın!**

SİZ, EY MƏNİM YER ÜZÜNDƏ YAŞAYAN CAN DOSTLARIM!

Qoy eşitsin ana Vətən!
Qoy bilsin insanlar!

Şəhidlərmizin ruhu göylərdə...
Günəşdən boylanıb nur saçır.
Torpağa toxum olub əkilir,
Yenidən cücərib, göyərmək üçün.

Siz, ey mənim əzizlərim!
Vətən qəhrəmanlarını, şəhidlərini,
həmişə xatırlayın,
xatirələrini əziz tutun.
Şəhidlər ölmür...
Öz qanları ilə zəfər çalıb,
qələbə bayrağı ucaldanları,
qəhrəmanlıq dastanı yazdıranları
həmişə xatırlayın, əzizləyin...
Bu torpağı -
ana Vətən qucaqlayan şəhidləri
xatırlayın.
Ölümləri ilə-
Vətən qapısını açanları
sevin, əzizləyin.
Şəhidləri dönə - dönə
xatırlayıb əzizləyin...

Ölümüylə xalqının səsinə səs verənlər,
tarixdə iz qoyanlar,
Adları tarixəəbədi yazılanlar
heç ölərmi?!
Getməz belə, getməz dünya...
haqq-ədalət yerin tutar.
Neynim axı mən fağır?!
Dərdim var Göyəzəndən ağır.
Payız gəlib,
xəzəl olub tökülürəm
Viranə qalmış meşələr kimi...
Nə qədər günahsız qanlar tokülür
Şəhid olmuş yarpaqlar kimi.
Mən bir qara buludam,
gözlərimdən qanlı yağış yağır...
Neynəyim, mən bir yetim, fağır...
İçimdə bu haray, bu səs...
Kimdir görən o kəs?
Getməz belə, getməz dünya.
Əllərim dünyanın yaxasında,
Hələ dünya öz yuxusunda,
Oynayır hərəöz havasında,
Getməz belə, getməz dünya.

VƏTƏN ÜÇÜNŞƏHİDLƏRİMİZ
O QƏDƏRDİ Kİ...
ŞƏHİDLƏR EYNİ YAŞDADIR.
KAŞ, İLİN BİR GÜNÜ
ŞƏHİDLİYƏ HƏSR OLUNAYDI .
HƏMİN GÜN İSƏ, BÜTÜN ŞƏHİDLƏRİMİZİN
"ANIM GÜNÜ!" OLAYDI...

Qoymayın... qoymayın, ey ana – bacılar!
Ey insanlar!
Şəhidlərimizin xatirələri unudulub,
ruhları üşüsün...

Ey ayağı yalın ana!
Qar yağır, gün olarmı?
Vətən üçün şəhid olan –
unudulub ölərmi.
Oy... oy... oy... oy Vətən!
Torpağı şəhidli Vətən!
Neçə -neçə igidli Vətən!
Cəsur oğlanların-qızların ölüb...
Ağla, qərənfil, ağla!
Ağla, anam, ağla!
Ayağı yalın ana!
Günün bağlı göy əskidə -
gör necə də pis günün olub.
Öğlanların-qızların
bax bu gün... bax bu gün ölüb...

Ağla, qərənfil, agla!
Ağla, anam, ağla!
Qurtarırmı ki, bu qalmaqal?!
Gözlərimdə yaşım qurudu.
Kürüm, Arazım qurudu.
Ağla, qərənfil, ağla!
Ağla, anam, ağla!
Telini saz eylə,
Dilini söz eylə,
Lalədən al – qırmızı,
Qərənfildən çəhrayı qan damır.
Nişanlı qızlarımızın
barmağından qan damır.
Ağla, qərənfil, ağla!
Ağla, anam, ağla!
Ey analar, bacılar
Əsir Qarabağım fəlakətdədir,
Mən indi bilirəm fəlakət nədir.
Qarğış eyləyirəm tək bircə sətir:
Qoy olsun "Quran"ım düşmənə qənim!
Vətənim!
Vətənim!
Vətənim!

Vətən sevgisi sevgilərin ən ülvisidir deyərdim. Təmiz duyğuların qaynağıdır Vətən! Uca peyğəmbərimiz gözəl demişdir: "Vətən sevgisi imandandır!"

Bəli, füsunkarlığı, bənzərsizliyi ilə dünyanı mat qoyan cənnət diyarımız var. Bu cənnət diyarımıza göz dikənlər də onun yeraltı, yerüstü sərvətinə tamah salanlardı. Ər oğullarımız da o tamahkarları öz tamah dağarcığında boğmağa çalışıblar. Bunu qılıncların qan ağzıyla yazılmış qanlı-qadalı tariximiz dəfələrlə sübut edib. Vətən dara düşəndə el-oba qeyrətini çəkən, vətən sevgisi ilə yaşayan oğullarını, qızlarını köməyəçağırıb, haray salıb.

Bu gün də Ağstafanın Sadıqlı kəndindəyaşayan igid, cəsur, qəhrəman oğlan və qızlarmızın hər biriVətən üçün şəhid olmağa hazırdır. Şair gözəl söyləmişdir: "Bayraqları bayraq yapan üstündəki qandır! Torpaq, əgər uğrunda ölən varsa, Vətəndir!""Biz dünyadan getməklə, Vətən əldən çıxmaz – Altında yatarkən də bizimdir yerin üstü!" – kəlamını qürurla deyirəm. Çünki şəhidlər ölmür, toxum olub əkilirlər torpağa, təzədən cücərib göyərmək üçün... onların qəbri sərhəd keşiyindədir, ruhlarını vətən, vətəni də onların ruhu qoruyur. Bizi yaşadan, bizi bəxtəvər edən, bizə sevgi bəsləyən, sevdalara çatdıran, son məqamda bizəöz torpağınıqıyan vətənə övladlıq borcumuzu qüsursuz yerinə yetirməliyik!

Doğrudan da:

Necəkəsim,
şah damarımı mən?

Axan qan vətənimdir!

Şəhidlik zirvəsi - vətənin zirvəsi, sevginin zirvəsidir. Bu zirvədən müqəddəs heç nə ola bilməz. Vətən uğrunda canından keçən şəhidlərmiz ölməzliyə qovuşurlar...

Şəhidlər əbədiyyətə qovuşur, daim yaşayırlar. Onlar ölməzlərdi, onlar diridirlər...

Torpaq qan saxlayır...
Şəhid qanı...
hələ ləkəsi qalıb.

Qan yaddaşımızda tarix belə qanlı– qadalı yeni bir səhifə açdı.

Azərbaycanın azadlıq vəərazi bütövlüyü uğrunda mübarizəsi tarixə qəhrəmanlıq səhifəsi kimi daxil oldu.

1988-ci ilin 13 fevralında ölkəmizə qarşıərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkar hərəkətlərindən və keçmiş SSRİ rəhbərliyinin onlara (ermənilərə) havadarlığından hiddətlənən, Bakının küçə və meydanlarına axışaraq qəti etirazını bildirən geniş xalq kütlələrinə qarşı ordunun yeridilməsi (İmperiya ordusu) Azərbaycanda misli görünməmiş faciəyə gətirib çıxardı. Həmin faciəli günlərdəöz ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənin mərd övladları canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. Böyük itkilərlə - günahsız insanların qətli ilə başlayan "**20 yanvar**"

faciəsi M.Qorbaçov başda olmaqla, cinayətkar imperiya rəhbərliyinin Azərbaycana qarşı xəyanətkar siyasətini, öz azadlığına, müstəqilliyinə can atan xalqımızın həm də mübarizliyini, əyilməzliyini, məğrurluğunu nümayiş etdirdi. Məhz bunun nəticəsində uzun illərdən bəri arzusunda olduğumuz müstəqilliyə çatdıq və ölkəmiz suverenliyə qovuşdu. Bu qanlı hadisələrdən illər keçməsinə baxmayaraq, xalqımız o müdhiş gecəni heç vaxt unutmayacaq. Oy... **o gecə**...

Küçələr çoxdan belə qan görməmişdi
O gecə necə də qanlı bir gecə...
Qana yerikləyən can görməmişdi.
O gecə, necə də qanlı bir gecə...

Hədəfə tutmuşdu gecədən bəri,
Sovet Bakısını sovet əsgəri.
Gecə iztirabla doğdu səhəri,
O gecə, necə də qanlı bir gecə...

İlahi, o gecə məhşərdi, nədi?
Düşmən başımıza gülləələdi.
Neçə dərd köynəyi qəm düymələdi...
O gecə, necə də qanlı bir gecə...

Tuş olduq bəlaya neçin, nədən biz?
Bədənsiz baş gördük, başsız bədən biz.
Sarsıldıq o gecə işgəncədən biz,

O gecə, necə də qanlı bir gecə...

Necə bəla idi, bu, necə zülüm?
O gecə cəfaydı, o gecə zülüm...
Bir də elə gecə görməsin elim,
O gecə, necə də qanlı bir gecə...

O gecə bu faciəni törədənlərə bütün dünya müsəlmanları öz dərin nifrətini bildirdi. Xalqımızın qan yaddaşında əbədi yaşayacaq 20 Yanvar gecəsini Respublikamız hər il "Ümumxalq hüzn günü" kimi geniş qeyd edir. Bu da tarixmizin qan yaddaşına "qanlı bazar" günü kimi yazılıb.

Bəli, ədəbiyyatımızın, poeziyamızın sönməz günəşi olan xalq şairi Səməd Vurğun demişkən:

Nələr çəkmiş başın sənin...

Dahi Səməd Vurğunun "Azərbaycan"şeiri xalqımızın ağrılı-acılı, şirinli bir tərcümeyi-halı kimi bütün dünyaya yaxşı tanışdır. Həmin şeirdəki "Nələr çəkmiş başın sənin" misrası bizi gizli qalan çox böyük həqiqətlərdən xəbərdar edir.

Bəli, doğma Azərbaycanımızın başı çox müsibətlər çəkib. Uzun əsrlər yadelli işğalçılar onun dilbər guşələrinə göz dikib və həmişə onun torpağından az da olsa qoparmağa çalışıb. Zaman-zaman yadelli işğalçıların hücumu xalqımız tərəfindən məharətlə

dəf edilib və haqsızlıqlara qarşı mübarizə tarix boyu xalqımızda döyüşəzmini daha da möhkəmləndirib.

Bilirik ki, "Gülüstan" (1813) və"Türkmənçay" (1828) müqavilələri Böyük Azərbaycan torpağını iki hissəyə parçaladı: Bir hissəsi paytaxt Təbriz daxil olmaqla, İran Azərbaycanı adlandırıldı. O biri hissəsi paytaxt Bakı olmaqla, Rusiyanın tərkibinə daxil edildi. Tarixi Azərbaycan dövləti süqut etdi. Uzun Həsənin və"Səfəvilər" dövlətinin qurucusu Şah İsmayıl Xətainin vaxtında Azərbaycan qüdrətli bir dövlət idi. Onun sərhədləri Bağdada qədər gedib çatırdı. Xarici düşmənlərin birləşməsi vəölkədaxili çəkişmələr onu parçalamağa başladı. Amma xalqımızın ürəyində Cavanşir, Babək, Koroğlu qeyrəti qalırdı. Xalqımız mübarizəəzmini özündə saxlayırdı.

20-ci əsrin əvvəllərində formalaşan milli-şüur yenidən pöhrə verdi. Bununla bərabər, yenə Azərbaycana xarici basqılar başladı və bu basqıların başında xəyanətkar Ermənistan dayandı. Xarici işğalçılar, xüsusən Suriya və Türkiyədən qovulan ermənilər rus imperilazminin köməyi ilə Dağlıq Qarabağı işğal etmək istədilər. Bütün bu gərgin ictimai vəziyyətə baxmayaraq, 1920-ci il may ayının 28-də Azərbaycan öz müstəqilliyini bəyan etdi. Bu, Şərqdə yaradılmış ilk Demokratik Respublika idi. Ancaq Rusiyada Nikolayı devirib qələbəçalan Bolşevik partiyası mənfur əllərini Azərbaycana uzatmaqda davam edirdi. Rus və yerli bolşeviklərin köməyi ilə 1920-ci il aprelin 27-də Bakıda Müstəqil

Respublika devrildi, bir gün sonra Azərbaycanda Sovet hakimiyyəti qələbəsini qeyd etdi. Beləliklə, Azərbaycan rəsmi olaraq, Rusiyanın müstəmləkəsinəçevrildi, Zəngəzur qəzası isə ermənilərin tabeliyinə keçdi. Dövrün psixoloji məqamlarıədəbiyyatımızda da özünə yer alıb.

Bu ağır yük çəkilməz...
Bu ağrılar içilməz.

***

Cocuklar ağlayırdı, gözləri qanlı durmuşdu,
Qadınlar ağlayırdı, dilləri əfqanlı durmuşdu.
(M. Hadı)

***

Mən istəmirəm yasaq, hər ümidim oldu təbah,
Ürəkdə qaldı, bütün dərdü - həsrətim, ey vay!

***

O, titrəşib mələşən yavrular üçün çabalar...

***

Həp cahan qanlı bir kitab əlan,
Bu fəqət bir səhifədir ondan.
Qopuyor hər tərəfdəünü fəryad...
(H.Cavid)

Kainat dəyişib,
məhşər günüdür,
özündən ağırdır
dünyanın dərdi.

Çəkə bilmir...
tərəzisi yox...
(G. Murad)

Azərbaycanın düşünən beyinləri üçün əsl faciə elə bundan sonra başladı, milli şüur daşıyıcıları kütləvi surətdə məhv edildi və bu 37-ci illərdəən yüksək həddəçatdı. Bu qırğın tarixdə repressiya kimi yadda qaldı. H.Cavid, M.Müşfiq, S.Hüseyn, S.Mümtaz, Y.V.Çəmənzəminli və neçə-neçə ziyalılarımız düşmənin əli ilə güllələndi.

Elə o zamandan 1988-ci ilə kimi erməni işğalçılarıərazi işğalını dayandıraraq, mənəvi işğala keçdilər.

Tarixə ekskursiya:

1969-cu ildə Azərbaycanda hakimiyyətə gələn Heydər Əliyev millətin mədəni və mənəvi sərvətini - ziyalıları qoruyur, get-gedə milli şüuru inkişaf etdirir. Heydər Əliyev 80-ci illərin əvvələrində Sov. İKP-nın Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Sovetinin birinci müavini vəzifəsinə irəli çəkilir. Xarici və daxili düşmənlər bundan çox qorxuya düşürlər. Heydər Əliyev SSRİ-də və xaricdə siyasi xadim kimi böyük nüfuz qazanır. Çox keçmir ki, Heydər Əliyev ölkə rəhbərliyində siyasi eybəcərliyə etiraz olaraq, vəzifəsindən istefa verir və bundan sonra Sovet İttifaqının dayaqları laxlayır.

Heydər Əliyevin istefasından sonra, 1988-ci ilin fevral ayının 15-də Dağlıq Qarabağ Muxtar Vilayətində yaşayan ermənilər ayağa qalxaraq, vilayəti

Ermənistana birləşdirmək istəyir. Azərbaycanda mitinqlər başlayır, milli azadlıq hərəkatı güclənir. Erməni və rus hərbi birləşmələrinə qarşı etiraz dalğası Azərbaycanı bürüyür. Qərbi Azərbaycanda yaşayan 250 mindən çox türk (azərbaycanlı) ermənilər tərəfindən öz yurd-yuvalarından qovulur.

1990-cı il yanvar ayının 19-dan 20-nə keçən gecə rus və erməni hərbi birləşmələri tərəfindən Bakıda dinc nümayişçilər gülləbaran edilir. Sadə insanlar küçədə, iş başında, ev-eşiyində amansızcasına qətlə yetirilir. Hətta amansız işğalçılar məktəbliləri də öldürməkdən çəkinmirlər. SSRİ rəhbərliyi, şəxsən M.Qorbacov Azərbaycanı qan gölündə boğur. Qocalar, uşaqlar, tibb işçiləri, sənət və elm adamları küçədə qanına qəltan olur. DağüstəŞəhidlər Xiyabanı yaranır. Bakıda fövqəladə vəziyyət elan edilir.

Çox keçmir ki, Azərbaycan yenidən öz müstəqilliyini bərpa edir. Gözügötürməyən qonşularımız Rusiya vasitəsi ilə silahlanaraq, Dağlıq Qarabağ Muxtar Vilayətindən (Şuşa, Xankəndi, Əsgəran, Xocavənd, Ağdərə, Xocalı) türkləri (azərbaycanlıları) qovur, evlərini talan edirlər.

Şuşa düşmən əlinə keçir və Xocalı ermənilər tərərfindən tamamilə yer üzündən silinir... insanlar öldürülür vəəsir götürülür. Bu an qələmim hön-

kürüb ağlayır. Ürəyimdə inildəyən dərd qələmimin gözündən tökülür. İçimdə göyüm-göyüm göynəyən bu dərdi kimə deyim? Ürəyimi qəm dağıdır.

Nə qədər igid oğul-qızlarımız vətən uğrunda şəhid olur. Yazarlarımız qələmə, oğul və qızlarımız silaha sarılır.

Sonra Dağlıq Qarabağa yaxın rayonlar işğal edilir. Kəlbəcər, Laçın, Qubadlı Cəbrayıl, Ağdam, Füzuli Zəngilan da düşmən tapdağına çevrilir.

Xalqın dəvəti ilə Ulu Öndər ikinci dəfə hakimiyyətə gəlir. Amansız müharibə dayandırılır. Milli Ordunun təməli qoyulur. Ölkədə sabitlik yaranır. Təcrübəli dövlət başçısı Heydər Əliyev ölkə daxilindəözbaşınalığa son qoyur. Şəhid ailələrinə qayğı artır. Şəhidlərin adıəbədiləşdirilir. Bu gün Azərbaycanda erməni işğalçıları tərəfindən öz doğma torpaqlarımızdan qovulan bir milyondan çox qaçqın və köçkün var. Onların 250.000-dən çoxu indi Ermənistan adlanan dədə-baba yurdumuzdan deportasiya edilənlərdir.

Bu rəqəmlərin arxasınca böyük bir həqiqəti oxucuların diqqətinə çatdırmaq istəyirəm. Bu gün itirilmiş torpaqlarımızı azad etməyə hazır olan milli ordumuz, güclü iqtisadiyyatımız və Ulu Öndərin layiqli davamçısı, Ali Baş Komandanımız İlham Əliyev var.

Əslində, bu kiçik yazı ən yaxın tarixə qısa bir baxışdır. Vətənimin ağır günlərində vətənpərvər

şeirlərimlə hər zaman yurdsevər oğulların görüşünə tələsimişəm. Kəndimizin şəhidləri haqqında yazdığım bu kitab ana yurdum Sadıqlıya və bütövlükdəvətənimə, vətən şəhidlərinə bir vəfa borcumdur. Yazımın əvvəlində böyük Səməd Vurğunun "Azərbaycan"şeirindən bir nümunə gətirdim - "Nələr çəkmiş başın sənin". Mən cəsarət edib bu misranın sonuna bir misra da əlavə etmək istəyirəm: "Başın sağ olsun, Vətən!"

Gələr elə bir zaman,
Düşmənimiz qusar qan.
Qanımı yerdə qoymaz
Vətənim Azərbaycan.

Yaranışından, hər insanın bəxti, taleyi alnına yazıldığı kimi, hər xalqın da taleyi onun ömür yollarını təyin edir... Və hər kəs öz taleyini yaşayır, öz taleyinin ağırlığını daşıyır...

Xalqlar, tayfalar da belədir. 19-cu əsrdən üzü bəri Azərbaycan xalqının taleyində Qarabağ mövzusu müəyyən dövrlərdə dönəm – dönəm gündəməçıxmış, qanlı qırğınlara səbəb olmuş, tarixə qanlı hərflərlə yazılmışdır. Arada isə, nahaq qanlar tökülmüş, günahsız insanlar yerindən, yurdundan didərgin düşmüşdür. Azərbaycan xalqının humanistlik edib qoynunda yer verdiyi, süfrə açdığı ermənilər isə, bu xüsusiyyəti xalqımızın zəifliyi, acizliyi kimi qəbul edərək, istədikləri vaxt, girəvə düşən kimi ilan

xislətlərini büruzə vermiş, xalqımıza məxsus olanı mənimsəməklə, çirkin əməllərini həyata keçirməkdən çəkinməmişlər.

"Yersiz gəldi, yerli qaç" kəlamı bu üzdəniraqların xislətinə tam uyğun deyilmişdir. Amma onlar bir şeyi unudublar ki, humanistliyini və qonqpərvərliyini zəiflik kimi düşündükləri bu xalqın aslan kimi oğul va qızları olub, var və olacaqdır! Elə Qazax mahalının, Ağstafa rayonunun Sadıqlı obasında da beləövladlar böyüyüb, torpaq, vətən uğrunda öz canlarından, keçməyə hazır olublar.

Azərbaycan xalqının taleyində Qarabağ savaşı bir alın yazısı, şəhidlərimizin taleyində isə bir zirvədir - Şəhidlik zirvəsi!

Ey tarixin yaddaşına,
tarixin səhifələrinə
azadlıq sözünü qanla yazan
şəhidlərim mənim...

Mən çiçək yerinə gətirdim şeir,
Şeirim çiçək olsun, şəhidim mənim.
Hər əsgərdən şəhid ola bilməyir,
Gərək ürək olsun, şəhidim mənim.

Ey diri şəhidim, ey ölü sağım,
Qanınla qızardı qara torpağım...

Məzarın üstdəki üçrəng bayrağım
Sənə bəzək olsun, şəhidim mənim.

Düşmənin salsa da zillətə səni,
Mərdliyin yetirib şöhrətə səni.
Tanrı yolladımı cənnətə səni?
Yerin ipək olsun, şəhidim mənim.
Yerin ipək olsun, şəhidim mənim!

Ey mənim Sadıqlımın şəhid balaları, ruhunuz şad olsun!

1) Bayramov Rəhman Dursun oğlu
2) Bayramov Habil Şahvələd oğlu
3) İbrahimov Nazim Tofiq oğlu
4) Xələfov Qərib Telman oğlu
5) Məmmədov Məmməd Qara oğlu
6) Nuriyev Zabit Şamil oğlu
7) Ramizov Məcid Binəli oğlu
8) Əhmədov Əhməd Paşa oğlu
9) Əfəndiyev Mahir Əhməd oğlu
10) Omarov Ariz Nəriman oğlu

Ey mənim əziz şəhidlərim, yerdə bombaların çuxuru olmasa, sülh olar.

İstərəm o dağa gedim yenə də,

Dağ üstəki dumanları neyləyim?
Bəlkə fələk dağçəkəcək sinədə,
Şübhələri, gümanları neyləyim?

Kimsə atdı, kimsə tapdı dünyada,
Kimsə yıxdı, kimsə yapdı dünyada.
Vurhavurdu, çaphaçapdı dünyada,
Bu qəsdləri, talanları neyləyim?

Mənə solğun görünmədə göydə gün,
Nikbinliyim azalıbdı büsbütün.
Yaxşı günü üstələyir yaman gün,
Yaman günə qalanları neyləyim?

Neylim, canda qüssə, fəğan yaşadı...
Üzülsə də yenə bu can, yaşadı.
Güləmail yaxşı– yaman yaşadı,
Vaxt – vədəsiz solanları neyləyim?

Ey Azərbaycan bayrağına and içən əsgərlərim. İnanıram ki, Azərbaycan bayrağı başımız üzərində həmişəəzəmətlə dalğalanacaq!

Fəxr, qürur, ehtişam,
Güvənc, etibar, inam,
Kömək həyan bayrağı –
Azərbaycan bayrağı!

Tanınmısan qədimdən!
Mətin ölkə, mərd Vətən,
Odlu məkan bayrağı –
Azərbaycan bayrağı!

Artsın şanın, şöhrətin,
Bu qoca məmləkətin
Hələ cavan bayrağı –
Azərbaycan bayrağı!

Qəlbimin təpəridir,
Xalqa ümid yeridir,
Elə güman bayrağı –
Azərbaycan bayrağı!

Dözümü var, gücü var,
Yıxılmaz, şax dayanar -
Varsa tutan bayrağı –
Azərbaycan bayrağı!

ANALAR... ANALAR...

O qədər ana-bacılarmız övlad həsrəti ilə gözləri yollarda, qulaqları səsdə, əlləri sazda, dilləri laylalı-bayatılı, qımqımalı, dünyasını dəyişiblər ki... Qırmızı paltarı bağlı boxçada, sandıqda qalan o qədər anlar var ki...

Ax, nişan üzüyü barmaqdan çıxmayıb qız qarıyıb ölən bacılar...

Vay... Vay...
Ax, müharibələr...
müharibələr...
mələşən körpələr,
atasız titrəşər, çabalar, kimsəsizləşər...
Gündüzlər düşünər deyərlər:
ürəkdə qaldı büsbütün dərdi - həsrətim...
Ax... Ax... ey qanlı fələk...
Gecələr ayla-ulduzla dərdləşər, uyuyar,
huşsuzlaşar atasızlar.
Həsrətlə qucaqlaşıb yatar gecələr,
ay gecələr... atasızlar sənlə gecələr...
Of... of...
ey şəhidlərimin ruhları,
siz deyin,
sizinlə dərdləşən şairə-
Güləmail bacınız necə yaşasın?

***

Allah “gəl” desəydi çıxıb gedərdim,
Ömür sarayımı yıxıb gedərdim,
Yaxamdan çəkməyir əlimi dərdim,
Çoxmu olacağam belə, bilmirəm,
Yaşaya bilmirəm, ölə bilmirəm.

Güləmail qalıb məlal içində,
Nə qədər vurnuxum xəyal içində?!
Qalmışam çox çətin bir hal içində,
Dərdimi heç kəslə bölə bilmirəm,
Yaşaya bilmirəm, ölə bilmirəm.

Göz nurum, şəhidlərim, siz ana naləsində, nəfəsində, dilində, bulaqlarımın zümzüməsində, dağ çaylarımın gur şəlaləsində, yarpaqlarımın pıçıltısında, çəmən çiçəklərinin ləçəyində, dağlarımın lalasında, aşıqlarımın sazında, şairlərmin şeirlərində, gecənin qaranlığını döyüb, dan yerini söküb gələn günəşimdə, bir də hər birimizi haraylayan məzar daşında yaşayırsınız. Və siz duyğusal ürəklərdə bayatıya, laylaya çevrilib vərəqlərə axırsınız. Deməli, bizi də yaşamağa, yaratmağa sövq edən sizsiniz!

O, ƏSL QƏHRƏMAN İDİ

Məmmədov Məmməd Qara oğlu
(1967 – 1992)

Elə igiddi Məmməd...
Məqsədə yetdi Məmməd.
Düşmənlə vuruşmağa
Könüllü getdi Məmməd.

Sadıqlı kənd orta məktəbi bu gün bir şəhidin adını daşıyır – Məmmədov Məmməd Qara oğlunun...

Məmməd 1967-ci il oktyabr ayının 7-də doğulmuş, 1974-cü ildə isə Sadıqlı kənd orta məktəbinə qədəm basmışdı.

1984-cü ildəəla qiymətlərlə təhsilini başa vuran Məmməd, İmperiya ordusunun tərkibindəəvvəlcə Gürcüstanın Axalkələki rayonunda, sonra isə Rusiyanın ucqarlarında xidmət keçmişdi. Artilleriya alayında qulluq etdiyinə görə, silahlardan, ümumiyyətlə bütün döyüş texnikasından istifadə etməyi yaxşı bacarırdı. Artilleriya alayında komandir olmuşdu, hərbi biliyə mükəmməl yiyələnmişdi Məmməd.

Onun xasiyyəti də eləəsl hərbçiyə xas idi. Ciddi, qarşısına qoyduğu məqsədəçatmaq üçün qorxu bilmədən hərəkət etmək, cəsarətli, düzgün qərarlar qəbul etmək, çətin vəziyyətdən çıxış yolu tapmaq, düzlük, bir az da sərtlik kimi xüsusiyyətlər onu qələbəyə səsləyirdi. Torpağa, vətənə, elə o qədər bağlı idi ki, elə ona görə də cənnət Qarabağımız, ümumiyyətlə, torpaqlarımız vəhşi erməni dığaları tərəfindən təhlükəyləüzləşdiyi vaxt mübarizəyə qalxdı, könüllülər cərgəsinə ilk yazılanlardan oldu Məmməd.

Qazax rayonundakı əlahiddə müdafiə taboruna qoşuldu. Əvvəlcə Qazaxın Sofulu, Cəfərli, Barxudarlı, Məzəm, Əskipara, Qızıl Hacılı, Bağanis-Ayrım kəndlərinin, sonra Tovuzun Əlibəyli, Ağstafanın Tatlı, Köhnə Qışlaq kəndlərinin müdafiəsi üçün döyüşdü. Bu döyüşlərdə böyük şücaət göstərdi Məmməd. Düz bir il qanlı döyüşlərdə düşmənləçarpışdı. Onun silahlardan istifadə etmək bacarığı, hərbi biliyə malik olması daim köməyinəçatırdı. Gözlənilməz məqamlarda, çətin anlarda verdiyi qərarlar, cızdığı planlar yoldaşlarının da həyatını təhlükədən qoruyurdu. Neçə-neçə döyüş səhifələri yazdı Məmmədin üzv olduğu alayın döyüşçüləri. O, döyüşdə olarkən, öz mövqeyini tərk etmədi. Nəyin bahasına olursa-olsun, düşməni geri çəkilməyə məcbur etdi, onları bir addım da irəli buraxmadı.

Son döyüşü 1992-ci il iyulun 29-da Qızıl Hacılı kəndinin müdafiəsi zamanı oldu. Qızğın

döyüşgedirdi. Məmmədgil düşməni irəli buraxmamağa çalışırdı, düşmən də, elə bil şeytan cildinə girmişdi. Döyüşçülərimizin silahı tükənməkdə ikən, onlar göbələk kimi artmaqda idilər. Doludağda topun arxasında həmyerlimiz Məmməd durmuşdu. Bu topun vasitəsi ilə ermənilərin mövqelərini alt –üst edir, səngərlərini viran qoyurdu. Ən qaynar nöqtələrdə vuruşurdu Məmməd. O, həmişəki kimi mövqeyindən çəkilməyəcəkdi, lap ölsə də... Belə də oldu, bu döyüş onun həyatının vida nəğməsi idi. O gün dönməz, mərd, cəsur, igid bir oğul da itirdi Vətən. Onunla yoldaşlıq edən hər kəs mərdliyinə, qorxmazlığına, səmimiliyinə heyran olmaya bilməzdi. Böyük ürəyi vardı Məmmədin. Onun ürəyində Vətən məhəbbəti boyda, düşmənə nifrəti də boy atmışdı. Amma düşmən bilsin, agah olsun ki, Məmmədin ürəyini mənfur güllə susdursa da, qəlbinə sığmayan Vətən məhəbbətini və düşmənə olan hədsiz nifrətini azalda bilmədi. Məmməd, uğrunda can verdiyi torpağa tapşırıldı. Ağstafa şəhərindəki Şəhidlər xiyabanı onun son mənzili oldu. O vaxt Böyük-Kəsik Atçılıq sovxozunda direktor işləyən Səlimxan Güləliyevin təşəbbüsü ilə Sadıqlı kənd orta məktəbinin həyətində Məmmədin abidəsi ucaldılıb. Ölümündən bir həftə sonra, onun qəhrəmanlığı bir dah Qazax Xeyriyyə Cəmiyyəti tərəfindən Əliağa

Şıxlinski adına mükafatla qiymətləndirildi. Qazax alayının birinci taborunun mahir topçusu Məmməd Qara oğlu belə igid idi.

Bunlarla kifayətlənməyən ana, sözü güllə kimi başımdan yağdırırdı...

Məmmədin anası Bənövşə xanımın dedikləri:

-Orta məktəbi bitirdikdən sonra qardaş Gürcüstanın Axalkələki şəhərində bir il yarım hərbi xidmətdə olmuşdu Məmməd. Hərbi xidmətdən qayıdandan sonra sənədlərini İqtisadiyyat Universitetinə verdi, amma qəbul imtahanından imtina edərək, "Vətən dardadır, Vətən yaşamalıdı" deyərək könüllü surətdə Qarabağa - döyüş bölgəsinə yollandı.

Ana oğluna xeyir-dua versə də, elə bil qəlbinin dərinliyindən bir haray qopurdu, "Getmə, oğul!" Məmməd bu harayı eşitmişdi. Anasının pərişanlığı onu əzsə də, xidmətdən imtina edə bilməzdi, çünki Vətənin dar günü idi. Anasını da qırmaq istəmirdi. Ancaq getməli idi.

-Ana! Ölən kəs torpağa basdırılır, bəs torpaq yoxdursa necə? Mən getməliyəm, vətən "oğul" deyə haray qoparır, Vətən yaşamalıdı, ana!

O, beləcə, müharibəyə yollandı.

Döyüş yoldaşları, danışırdı ki, ermənilər tərəfindən həmişə səs gəlirmiş: ay Koroğlu, ay Səddam Hüseyn, ay Mixaylo sənin başına külli miqdarda pul qoymuşuq. Kim sənin başını gətirsə, mükafat verəcəyik.

Bəli, bizim Məmməd belə Məmməd imiş.

1870-ci illərdə Sadıqlı kəndinin bünövrəsini qoyanlardan biri də Masının qızı Bənövşə, Meqinin qızı Lalə, Mustafanın qızı Mələk - bu nənələr əmi uşaqlarıdır. Bu igidlərlə kəndimizin bünövrəsi qoyulub. Adlarını çəkdiklərim - Meqi, Ması, Masqara kişi, Mustafa qardaş olmuşlar. Bax, bunlar bizim qəhrəman cəsur, dönməz Məmmədimizin baba nənələri olmuşlar. Belə nənə - babası olan kəndin övladları vətəni sevməyə bilərmi? Onlar da 1905 – 07- ci illərdə erməni - müsəlman davasının iştirakçısı olmuşlar. Ermənilər İncə dərəsinə - 1905-07-ci illərdə kəndlərə basqın edəndə, Aslanbəyli kəndindəki Hacı Mahmud Əfəndinin Ziyarətgahını dağıdanda, Məmmədin babaları da camaatın köməyinə gedib. Onların həyat yoldaşları da silaha sarılıb kişiləri ilə birlikdə döyüşə giriblər. Qadınlar kişilərinə silah daşıyırmış. O gün xeyli sayda erməni öldürüblər. Döyüş zamanı Masının beşaçılanında problem yaranıb. Bundan istifadə edən ermənilər Məmmədin babalarını qətlə yetirib. (adı çəkilənlər haqqında neçə-neçə söz sahibi şeirlər, məqalələr yazmışlar- müəllif). Dədə-baba dövründən bizim analar öz kişiləri ilə birlikdə çiyin-çiyinə vuruşmuşlar. Dildə, ağızda gəzən bu qəhrəman babalarımız haqqında çox danışılıb. Məmməd isəözü könüllü

olaraq, Qarabağ döyüşlərinə qoşulub. Gedərkən tapşırığı da oldu mənə:

-Ana, şəhid olsam, ağlama. Əgər təsadüfən əsir düşsəm, bax onda ağla... ana, doyunca ağla, ürəyin boşalana qədər ağla. O göz yaşların torpağa qarışıb ruhuma sərinlik gətirəcək. Dönüşüm bəlli olmasa da, Vətən harayımı əsən yellərdən duyacaqsınız. Bax, onda məni düşünən bir qəlbin varlığına əmin olacaq, sevinəcəyəm. Təki, Vətən yaşasın!!!

"İndi biz Məmmədin adını qardaşı Ərəstunun oğluna qoymuşuq... Oğlum Məmmədin qoxusunu balaca Məmməddən alıram" - dedi Bənövşə ana. Bənövşə ana onu da dedi ki, Vətən oğul böyütdüyü kimi, oğul da Vətənə gərəkli olduğunu sübut etməli-di. Məmməd demişkən: "Təki, vətən yaşasın!"

Şüardır sənə, mənə,
Təki, vətən yaşasın.
Can borcluyuq vətənə,
Təki, vətən yaşasın!

Məmməd də gəldi –getdi,
İgidtək öldü – getdi,
Şəhidtək öldü – getdi,
Təki, vətən yaşasın!

Kim deyir ki, sağ deyil?
Övladını diri bil,

Ana, göz yaşını sil!
Təki, vətən yaşasın!

72 GÜN...

Nuriyev Zabit Şamil oğlu
(1974 – 1992)

Anam, igidəm, eşit,
Sən məni bu dəm eşit.
Dalımca ağlama ha,
Diri şəhidəm, eşit.

Ananın dilindən:

Ay ağalar, gəlin, sizə söyləyim,
Elə bir kəsim yox bilə dərdimi,
Artırır, artırır bu zalım fələk,
Qərq edər ümmana, selə dərdimi.
Elə bir kəsim yox bilə dərdimi.

O, 1974-cü il martın 24-də Quba rayonunun Vəlvələ kəndində anadan olmuşdu.

Biz 1943-cü il noyabrın 16-da Stalinin əmri ilə Axalkələkidən - Gürcüstan Respublikasının Entel

kəndindən Orta Asiyaya, Özbəkistanın Daşkənd vilayətinin (Buqa rayonu) Muçirin kəndinə sürgün edildik.

Azərbaycanın baş katibi Vəli Axundovun təklifi ilə 1958-ci ildə vətənə döndük, Qubanın Vəlvələ kəndində məskunlaşdıq. Sonra Quba rayonundan 1977-ci ildə Qazax rayonunun (İndiki Ağstafa) Sadıqlı kəndinə köçdük.

Zabit 1981-ci ildə Sadıqlı kənd orta məktəbinə daxil oldu. 1991-ci ildə isə həmin məktəbi bitirdi. 1992-ci ilin aprel ayında həqiqi hərbi xidmətəçağırıldı.

O, Ağstafanın Tatlı kəndinin Ballı Qayada (Hacı dağ) yerləşən hərbi dəstəsində xidmət etmişdi. Zabitlə birlikdə şəhid olan Əsgər (Pirli kəndi), Mamed (Məhəmməd) Omarovla (Köçvəllidə yaşayan məcburi köçkünlərdən idi), hər üçü həmişə döyüş bölgələrində düşmənə qan uddurublar. Son döyüş zamanı bu üç nəfər Köhnə Qışlağın yaxınlığındakı, iki kəndi bir müddət əllərində saxlaya bildilər, ancaq arxadan kömək gəlmədi. Hər üçü Azərbaycan marşını oxuya-oxuya üçrəngli bayrağımızı Ballı dağın yüksəkliyinə qaldırdı. Bayrağı Ballı qayaya sancarkən Əsgərlə, Mamed düşmən gülləsinə tuş gəldi. Zabit Mamedi çiyninə alıb daha təhlükəsiz yerə apardı. Yaralardan qan şoralanırdı. Ona görə də vaxt itirmədən Mamedi gətirib Şamil

(Qambatov) həkimə təhvil verdi. Və digər döyüşyoldaşı Əsgəri gətirmək üçün kömək istədi Şamil doktordan. O da: "Komandirin sağ əlisən (kamandir Qarapapaq Cavanşir), yaralıları tək gətirməlisən" deyə başından elədi. Zabit tək qayıtdı. Ballı Qayanın ətəyi ilə yüksəkliyə qalxarkən düşmən snayperi onu hədəfə aldı. "Ah, Vətən!" deyərək, Zabit də bu fani dünya ilə vidalaşmalı oldu. Vətən, torpaq üçün canını fəda edənlərdən birini də, beləcə, itirdik.

Düz 72 gün cəsədi tapılmadı. 1994-cü ildəömrünün 20-ci baharını döyüşlərdə keçirən Zabit Ağstafanın sərhəd məntəqələrində fədakarlıq nümayiş etdirirdi. Döyüş postlarında dəyanətlə dayanan Zabit və döyüşçü dostları həmkəndliləri Yusifov Sahib və Qasımov Asəf də onunla idilər. Verilən tapşırıqları layiqincə yerinə yetirən Zabit nümunəvi döyüşçü adını qazanmışdı.

Zabitin anası Zöhrə xanımın dediklərindən:

-Mənim qardaşım olmadığıüçün oğlanlarımın üçünə də qardaş gözüylə baxmışam. Onlar böyüdükcə mənim sevincimin həddi-hüdudu olmayıb. Sürgün olduğmuzu belə unutmuşam. Həvəslə geyindirmişəm onları. Balalarımın üçü də idmançı, vətənpərvər olub, uşaq vaxtı üçünə də eyni cür al-əlvan naxışlı qış corabları toxuyurdum. Elə sevinirdilər ki...

Əsgər oğlum Zabit də, Həbib də könüllü olaraq müharibəyə getdi.

Həbibin dedikləri:

-Qardaşım həlak olandan sonra özüm könüllü hərbi xidmətə getdim.

Qardasım Zabitin arxasınca getməyimin səbəbi odur ki, birinci, vətən darda idi, ikinci, qardasm Nuriyev Əhməd də orada - vətən uğrunda döyüşdə idi, üçüncü isə, üç gecə dalbadal yuxuda gördüklərim oldu. Yuxularımda qardaşım Zabit əllərini mənə sarı uzadaraq haray qoparırdı:

"Tələs, tələs qardaşım, gəl məni apar..."

Qarağacın altında vurulmuşam,
"Ballı qaya"da yatıram qar altında.
Gəl, gəl, tələs, məni apar, qardaşım.
Yağan qar buzlaşıb yorğanım olmuş.
Yastığım daşlaşmış vətənin daşı,
Gəl, gəl, tələs, məni apar, qardaşım.

Qardaşım mənidə buluda döndər,
Uzanan əllərimi şəhidlərə yetir.
Şəhidlərə yetir, mələyə döndər,
Gəl, gəl, tələs, məni apar, qardaşım.

Bağımı – bağçamı qırov apardı,
Yuxular məndən də soraq apardı,

Sözlərimi sərt küləklər apardı,
Gəl, gəl, tələs, məni apar, qardaşım.

Gəl, məni apar, mən Köhnə Qışlaqda - Ballı qayanın ətəyində - əkinin içindəyəm, gəl, apar məni, qardaş, Qarağac kolunun altındayam, buzlaşmış qardı yorğan-döşəyim, gəl, gəl məni apar, qardaşım, gəl apar, gəl...

Döyüş Ağdərədə - Qızıl Hacılıda, Ballı qayada gedirdi. Mən Qazaxda yerləşən alayın rəisi İsa Nəcməddin oğlu Sadıqova müraciət etdim. Dedi ki, evə qayıtmalısan, cünki qardaşının biri həlak olub, o biri qaradaşın Əhməd də buradadır, təcili geri dön.

Amma cəsur, dönməz, vətən üçün doğulan oğlumuz Həbib inadından dönməyərək, - "mən qayıda bilmərəm" – deyə israr edir.

-Mən qardaşımı tək qoya bilmərəm, onunla çiyin-çiyinə döyüşməyə gəlmişəm, arxaya qayıtmağa üzüm yoxdu. Və nəhayət, məni saxladılar Qazaxın özündə - alayda. Vəzifəmiz o idi ki, mühasirəyə düşən əsgərlərin arxasınca köməyə gedək. Bir neçə dəfə mühasirədə qalanlara kömək əlimi uzatmışdım. Nə isə, bizi Tatlıya göndərdilər. Bu dəfə 75 nəfər getdik. Tatlıya girdikdə Köhnə Qışlaqda əsgərlərin hamısını mühasirədən çıxarıb, erməni diğalarını atəşlə susdurduq.

Alaya qayıtmağa hazırlaşarkən dönüb Ballı qayaya baxdım, nə görsəm yaxşıdır, həmin döyüş yeri, həmin dağ; sanki yuxudan ayıldım, üç gecə dalbadal

gördüyüm yuxu yadıma düşdü. Dağlardan sanki bir səs gəlirdi, gəl, məni apar, qardaşım. Mənə sarı uzanan o əllər kino lenti kimi bir anlıq gözümün önündən keçdi. Dörd əsgərlə birgə yüksəklikdən aşağı endik. Yemişan ağacının üstündə bir cəsəd vardı. Cəsədin rəngi qapqara idi. 2 nəfər buşlatı çıxarıb yerə saldı. Cəsəd dağılmasın deyə, oymaqlarından götürüb onu buşlatın arasına qoyduq və Ballı dağın yüksəkliyinə qaldırdıq. Bu, Pirili kəndində yaşayan, vətən üçün qəhrəmancasına şəhid olan Əsgər idi. Biz yenə də təkrar Ballı qayanın ətəyinə endik, qardaşımı axtarmağa. Sanki qulağıma bir səs gəlirdi, qardaş, mən buradayam, Qaragac kolunun altındayam, gəl, məni də apar.

Doğrudan da, Ballı qayanın ətəyini axtaranda Qarağac kolunun altındakı qaraltıya sataşdı gözüm. Qarın içində güclə sezilirdi. Yuxuda gördüyüm yer idi. Görünən qaraltı isə onun ayaq pəncəsi idi. Qardaşımı corabından tanıdım, çünki çəkməsini çıxarıb aparmışdılar, cəsədinin üstünü qar örtmüşdü. Qarı təmizlədik pambıqlısını, kəmərini, cib bıçağını da çıxarmışdılar, toqqası isə yerdə qalmışdı. Toqqa da şahidlik edib deyirdi ki, düşməndən gizlənib qalmışam, Zabiti tanıtmaq üçün.

Göz yaşlarıma hakim kəsilməliydim, yoxsa düşmən duyuq düşə bilərdi. Nə isə, Zabitin də cəsədini buşlata büküb Qazaxdakı alaya gətirdik.

-Mən o gündən sanki yaşamıram.

Əsgərin cənazəsini doğulduğu kəndə - Piriliyə apardılar.

Mən də Zabitin cənazəsini Sadıqlıya gətirdim. Gecə saat 11:00 idi. Mənimlə birlikdə komandir Əşrəf, gizir və 4 nəfər əsgər də vardı.

1992-ci il dekabrın 29-da Ağstafanın sərhədindəki yüksəklik uğrunda gedən döyüşlərdə snayper gülləsindən gözlərini əbədi yuman Zabit Şamil oğlu "Ballı qaya"da qəhrəmancasına həlak olmuşdu. Deyirlər, elə o vaxtdan "Ballı qaya" da balsız qalıb....

Ballı qaya balsız oldu,
Ballı qaya, Ballı qaya.
Zabit bala halsız oldu,
Ballı qaya, Ballı qaya.

Çox gənc idi, cavan idi,
Bir igid qəhrəman idi.
Zabitə güllə tuşlandı,
Ballı qaya, Ballı qaya.

Əsgər idi - igid, qoçaq...
Qayadakı Zabitə bax...

Zabit zabit olmayacaq,
Ballı qaya, Ballı qaya.

Zöhrə ana Ballı qaya deyə-deyə
məzar daşına sarılır.

Düşmənin başına daş niyə düşmür?
Bir ana ağlayır məzar başında,
Cəlladın gözündən yaş niyə düşmür?
Bir ana ağlayır məzar başında.

Dağılır ölkələr, yurdlar, vətənlər,
Saralır bağçalar, güllər, çəmənlər...
Neçin məhəl qoymur gəlib gedənlər?
Bir ana ağlayır məzar başında.

Bu günün dərdini sabah çəkirlər,
Savabı boşlayıb, günah çəkirlər,
Nə fəryad anlayır, nə ah çəkirlər,
Bir ana ağlayır məzar başında.

Bu ah şəhidi də oda yaxacaq,
Qulaq ver, məzardan naləçıxacaq.
İndicə içindən laləçıxacaq,
Bir ana ağlayır məzar başında.

Neçin yaşayan var qübar içində?
Ədalət varımdır rüzgar içində?
Bir şəhid uyuyur məzar içində,
Bir ana ağlayır məzar başında.

SAĞ QALSA İDİ...

Əhmədov Əhməd Paşa oğlu
(1958 -1993)

Ananın dilindən:

İgid əsgər, qılınc çək,
İgidliyin mübarək.
Vətən şəhidi olsan
Şəhidliyin mübarək.

Əhmədin yazı-pozuya çox böyük həvəsi vardı. Rayonunn "Qalibiyyət bayrağı" qəzetində vaxtaşırı məqalələri dərc olunurdu. Rayon əhalisinin qayğılarından, problemlərindən bəhs edirdi məqalələrində. Orta məktəb illərində daha çox ədəbiyyatla maraqlanırdı.

1958 – ci ildə Ağdaş rayonunun Ağzıbir kəndində - ziyalı ailədə doğulmuşdu Əhməd Paşa oğlu. O zaman Əhmədin atası Paşa İsmayıl oğlu Ağdaş Rayon Maarif Şöbəsinin müdiri vəzifəsində işləyirdi. Anası Lütviyə xanım riyaziyyat müəllimi idi.

Qarayazı meşəsinin bənzərsiz gözəlliyi, səmum küləyində rəqs edən yarpaqların pıçıltısı, Ana Kürümün həzin laylası, bəzən kükrəyib daşan, sellənib coşan hayqırtısı Sadıqlı torpağının təmiz havası, saf suyu ilə böyümüşdü Əhməd. Orta təhsilini də kənd məktəbində almışdı.

1977-1979-cu illərdə hərbi xidmətini o vaxtlar keçmiş SSRİ-nin Uzaq Şərq vilayətində başa vurmuşdu. Hərb elminin sirlərini yaxından mənimsəmişdi. Xidmətdən qayıtdıqdan sonra qonşu Gürcüstanda - zavodların birində uzun müddət sürücü işləmişdi. Elə kənddə sayılıb-seçilən hörmətli bir ailənin qızı ilə ülfət bağlamışdı, üç qız atası idi. Necə deyərlər, əlinin qabarı, alnının təri iləövladlarını böyüdürdü. Kiminləsə işi olmazdı. El içində xətrihörməti vardı. Üzdəniraq qonşularımız torpağımıza göz dikəndə, Əhməd də həmkəndliləri ilə birlikdə vətənin müdafiəsinə qalxdı.

1991-ci ildə erməni fitnəkarlığının tüğyan etdiyi məqamda ilk könüllülər taboruna yazılanlardan oldu Əhməd. Fikirləşdi ki, torpaq düşmən tapdağı altında olmasa, övladlarım el-obada rahat yaşayar.

Qazax rayonu ərazisində torpaqların qorunmasında, düşmən hücumlarının qarşısının alınmasında fəal iştirak etdi. Əhmədin ilk döyüşü Qazaxın sərhəd kəndləri - Quşçu, Bağanis-Ayrım və Fərəhli oldu. Qızılhacılı kəndi uğrunda gedən döyüşlərdə rabitəçi işləyirdi. Sonra isə vəziyyətin

daha gərgin olması ilməlaqədar Ağdərənin, Tərtərin qorunmasıüçün köməyəçatdırdıözünü.

Sərsəng su anbarıətrafında onun son döyüşü oldu. Heç nədən qorxmurdu. Döyüşdəözünü elə şücaətli, mərd göstərirdi ki... Bu döyüşdə dostlarını qorumaq istəyərkən özü itkin düşdü. O zaman 1993-cü ilin mart ayı idi. Torpaq qış yuxusundan oyanıb, nəfəs alarkən, elin, obanın, vətənin oğlu canını torpağa tapşırdı. Sənlə fəxr edirəm, əziz balam, vətənə oğul olduğun üçün. Əziz şəhid balalarım, qoy mənim yazdıqlarım sizin ruhunuzu isitsin... göz yaşım qəbriniz üstündə gül-çiçək bitirsin.

Onun mərdliyi, qorxmazlığı, Vətən torpaqlarının tamlığı uğrunda göz qırpmadan canını fəda etməsi ilə təkcəövladları deyil, bütün kənd fəxr edir. Amma sağ qalsaydı, bəlkə də, bir jurnalist kimi tanınardıƏhməd. Bəlkə da yaxşı bir yazıçı olardı. Vətənin dərdini, yarasını ovutmaq üçün, şəhid hekayələrini, əsir insanların, elindən didərgin düşənlərin hislərini qələmə alardı, söz ilməbədiləşdirər, gələcək nəsillərəörnək olan əsərlər yaradardı. Amma bu da taleyin işidir. O, ölməz qəhrəman kimi öz igidliyi ilə, yaddaşlara həkk olub, daşlaşıb, heykəlləşib. Yaxşı deyiblər ki, torpaq uğrunda ölən varsa, vətən var.

Onlar heç vaxt ölmür...

Vardı yaşamaq eşqi,
Əhməd Paşa oğlunun.
Yoxluğuna inana –
Bilməyirik biz onun.

Baharda doğulmuşdu...
Ömür yarı, yaş yarı...
Ürəyində qalıbdır,
Əhmədin arzuları.

Baharda doğulmuşdu...
Tərk etdi baharda da
Cahanı igid Əhməd.
İftixarla deyirik
Mərd Əhməd, şəhid Əhməd!

"Yoxdur" deməyək, o, var,
Əhməd sanki yenə sağ.
Bu şeiri hər bahar
Əhməd Paşa oğlunun
Qəbri üstə oxuyaq.

12.08.2007

XƏYALA DÖNƏN ARZULAR

Bayramov Rəhman Dursun oğlu
(1973 – 1993)

Qızıldanmı dan yeri?!
Göyün qızaran yeri?!
Ürəyimdə güllə var,
Köynəyimdə qan yeri.

Bayramov Rəhman Dursun oğlu... Bu ad da Sadıqlı camaatının, yaddaşında əbədi qalacaq və yaşayacaq - şəhid adlardan biri kimi. O da, vətənin dar günündə canını qurban vermiş igidlərdən biridir.

O, 1973-cü il sentyabr ayının 14-də anadan olmuşdu. Sadıqlı kənd orta məktəbini bitirdikdən sonra, Gürcüstan Respublikası Qardabani rayonundakı Texniki Peşə Məktəbinə daxil olur, sürücü-mexanizator peşəsinə yiyələnir. Kim bilir, sağ qalsaydı, indi hansı sənətin arxasınca gedərdi, necə gözəl ailə başçısı olardı.

Rəhmanın həyata keçməyən o qədər arzuları vardı ki, necə xəyallar qururdu gələcək üçün...

Atası Dursun kişi o vaxtlar Xalq Cəbhəsinin üzvü idi. Həm dəəlbəttə ki, vətəninin, həmvətənlərinin gələcəyi naminə xeyirli işlər görəcəklərinə inanaraq, el-obaya xeyir vermək naminə qoşulmuşdu bu cəbhəyə. O vaxtlar qarışıq zaman idi. Vətəni həm daxildən, həm də xaricdən düşmənlər ələ keçirmək üçün hər cür vasitəyəəl atırdılar. Yaşıdları kimi Rəhman da 1992-ci ildə Vətənə borcunu vermək üçün hərbi xidmətə getdi. İlk qulluq etdiyi Poylu kəndində yerləşən hərbi hissədə onlara təlim keçirilir, döyüş texnikasından istifadə etməyi öyrədirdilər. Sonra isə döyüşçü kimi Köhnə Qışlaq kəndini qorumağa göndərdilər. Bir dəfəəmisi onu yoxlamağa gedibmiş. Onun necə döyüşdüyünün şahidi olub. Əmisi qeyd edir ki, Rəhman qan-tər içində minamyot atır, nəzərini məndən çəkmirdi, güllə dəyməsin deyə, hətta, baxışlarıyla qorumağa çalışırdı məni. Özünü heç düşünmürdü. Fikri döyüşən yoldaşlarında, bir də məndə idi. Düşmənə qarşı o, necə də amansız idi, Allah! Elə deyirdi ki, bircə bu murdarların burunlarını ovub geri oturtsaydıq, heç olmazsa, gənc nəsil xoşbəxtliyin ləzzətini dadardı. Biz də baxıb qürur duyardıq ki, əməyimiz öz bəhrəsini verib.

Hər tərəfdən hücuma keçən düşmən qüvvələrinə qarşı dirəniş göstərən igidlərimiz mövqelərindən geri çəkilmirdi. Azğın düşmən daha böyük qüvvə ilə irəliləyirdi. 1993-cü ilin aprel ayının ortaları idi.

Aprelin 16-da Rəhman əmisi oğlu Habilin Ağdərə-də həlak olmasını eşitdikdən sonra, intiqam hissi ilə minamyotdan dalbadal atdığı mərmilərlə xeyli düş-mən əsgərini məhv etdi. Təəssüf ki, sonda özü Tatlı kəndindən olan dostu Fəxri Nəsir oğlu Nağıyevlə birlikdə düşmənin atdığı minamyot qəlpəsindən həlak oldular. Dilinə gətirmədiyi neçə-neçə arzusu da özü ilə birlikdə torpağa gömüldü Rəhmanın. O, Sadıqlı kənd qəbiristanlığında dəfn olundu. Adını isə, Sadıqlı kənd xəstəxanası yaşadır. Gələcək haqqında ümidləri, arzuları elə arzu olaraq qaldı, xəyala döndü. O, xəyallarda istədiyi həyatı qurdu, bir qız istədi, hətta evləndi və...

Sonsuz xəyallar, elə xəyal kimi də bir güllənin qurbanı oldu, hər şey dağıldı, xəyallar da, arzular da...

Bu da yarımçıq bir ömrün yarımçıq hekayəsi...

Görəsən, Vətəni qorumaq üçün canından keçən balalarımızın günahı nədir? Bu balaların köksünə sancılan, onların cavan ömrünə son qoyan güllə-lərin atılması, əsrin faciəsi, nadanlığın nəticəsi deyilmi, Ey Analar?!

Analar, axmasın göz yaşınız!

Mənim əziz analarım!
Göz yaşınız
gülab olub şəhidlərmizin
məzarına tökülsün,
ətrinizə bələnmək üçün,
layla-bayatınız məzar başında
keşikçiniz olsun,
Şəhidlərimin
ruhlarını oxşamaq üçün,
Küləklər qələbədən müjdə gətirsin...

Ah – ah, ey güllə atanlar!
Sən, ey sevən ürəkləri,
duyan könülləri,
həyat eşqini söndürən
gullə atan adam!
Səndən görəsən kimin xoşu gəlib?
Kim səndən zövq alıb?
Ey güllə atan adam,
qara saçlı analarımızın
saçlarını qar kimi
ağardan deyilmisən?
Nişanlı qızlarımızın
həsrət dolu gözlərini
yolda qoyan,

xonçalarını al-qırmızı
qana boyayan,
sən deyilmisən?
Ey gullə atan adam,
Əli xınalı cavanlarımızın
xınasını
torpağa hopduran
sən deyilmisən?
Ey güllə atan adam,
Cavan ana-bacıların
qırmızı donlarını
bağlı boxçalarda,
geyinilməmiş qoyan
sən deylimisən ?
Ey gullə atan adam,
Ağ saçlı analarımızın
belini bükdürüb
dünyaya lənət yağdıran
sən deyilmisən?
Ey güllə atan adam,
gülə atan adam!..

Qeyrətli, cəsarətli, əyilməz oğullarımız, ər igidlərimiz vətənmizin qeyrət və rəşadət simvoludur. Belə oğullarmızla fəxr etməyə dəyər.

Mənim əziz balam Rəhman Dursun oğlunun da arzusu təəssüf ki, xəyal oldu.

Ey, yazı, baharı, arzusu xəyal olanlarım...

Bahar fəsli doğuldu,
Cəsur bir igid oldu.
Nər kimi vuruşaraq,
Ər kimi şəhid oldu.

Elə ki, cavan oldu,
İgid bir oğlan oldu,
Qocala bilməsə də,
Rəhman qəhrəman oldu.

Qisməti məlal oldu,
Varlığı sual oldu.
Rəhman Dursun oğlunun
Arzusu xəyal oldu.

07.02.2007

TARİXİ YAŞADAN HƏQİQƏTLƏR

Bayramov Habil Şahvələd oğlu
(1973-1993)

Var olmasam da cismən,
Ölməmişəm, amma mən -
Seyr edirəm Vətəni
Şəhidlik zirvəsindən.

Şəhid övladlarımızın hər birinin keçdiyi qısa həyat yolunu, mənalıömrünü vərəqlədikcə, onların döyüş yollarını izlədikcə, sanki özün də o yolları keçirsən, onların duyğularını duyursan, yaşadıqlarını yaşayırsan, nifrətini, düşmənə qəzəbini hiss edirsən, açılan güllələrin, atılan mərmilərin gurultusu içində düşünürsən ki, nə yaxşı ki, xalqımızın mərd övladları çoxdur, "uf" demədən yurd, torpaq uğrunda canlarını qurban verməyə hazırdırlar. Bu övladlar vaxt, zaman gözləmədən hər an düşmən əlində olan torpaqları qaytarmağa, azad etməyə məqam gözləyirlər.

Ağstafanın Sadıqlı kəndində - sadə bir ailədə - Şahvələdin ocağında -1973 - cü il iyun ayının 2 – də bir oğul göz açdı dünyaya. İş-gücün çoxluğundan göz açmağa imkan tapmasalar da, qohum - əqrəba, qonum – qonşu, onlara gözaydınlığı verdilər, təbrik etdilər, xeyirli övlad olmasını dilədilər. Körpənin adını da Habil qoydular.

O, 1980-ci ildə Sadıqlı kənd orta məktəbinə daxil olmuş və 1991-ci ildə qonşu Muğanlı Peşə Məktəbini bitirmişdir. Habil elə uşaqlıqdan sakit, sözə baxan idi, kənd təsərrüfatı işlərində valideynlərinə kömək etməyə, əl tutmağa çalışırdı. Oxumağa o qədər də həvəsi yox idi. Odur ki, kənd məktəbinin 8-ci sinfini bitirib traktorçu peşəsinə yiyələndi.

1992-ci ildə hərbi xidmətəçağırıldı. Poyluda olan hərbi hissədə 4-5 ay xidmət keçəndən sonra, onu Ağstafanın Köhnə Qışlaq kəndinə apardılar. Bu kənd Ermənistanla sərhəddə yerləşdiyindən, düşmən qarşısında sayıqlığı itirmək olmazdı.

Habil bir neçə aydan sonra Ağdərəyə yola düşdü. Burada özünü mərd, cəsur, qorxmaz əsgər kimi tanıtdı, döyüş dostlarının, komandirin rəğbətini qazandı. Hələ Köhnə Qışlaqda olarkən, qazaxlı Alikin dəstəsində döyüş yolu keçmişdi Habil. Qəhrəmancasına vuruşaraq, onlarla erməni əsgərini öldürmüşdü.

Dəfələrlə kəşfiyyada olmuşdu. O, hər zaman özünü əsl kəşfiyyatçı kimi aparmışdı. Hətta bir

dəfəizə düşərək, otların arasında gizlənən ermənilər səssizcə məhv etmiş və lazımi məlumatı gətirmişdi. Elə bu səbəbdən də komandanlıq tərəfindən bir neçə günlüyə evə buraxılmışdı.

Habil Köhnə Qışlaqdan Ağdərəyə könüllü getmişdi. Vəziyyət daha çətin olduğu üçün, orada daha çox lazım olacağını düşünürdü. Arada kor bağırsağından cərrahiyyəəməliyyatı olunsa da, yarasının sağalmasını belə gözləməmiş, döyüş yoldaşlarına köməyə tələsmişdi. Valideynləri onu evdə ləngitmək istədikdə demişdi:

-"Bu kor bağırsaq nədi ki, siz orada yaralananları görsəniz, belə deməzsiniz, özünüz mənə tələs get, deyərdiniz".

Ağdərə döyüşləri səngimək bilmirdi. Mart ayı yenicə girmişdi. Artıq baharın ətri duyulur, torpaq canlanırdı. Ermənilər nəinki geri çəkilmək istəmir, hətta bayrama qədər yeni torpaqlar ələ keçirmək üçün "rusların" köməyinə arxalanaraq yeni cəhdlər edir, daha da quduzlaşırdılar. Elə bu amansız döyüşlərin birində - mart ayının 2 - də Habilgilin dəstəsi var qüvvəsi ilə düşmənin qarşısını kəsməyə, onları məhv etməyə çalışdılar. Lakin qüvvələr bərabər deyildi. Beləçətin, qeyri - bərabər döyüşşəraitində torpaqlarımızın azadlığı uğrunda çırpınan, döyünən bir vətən övladının ürəyi 1993-cü il mart ayının 2 - də Ağdərə uğrunda gedən döyüşlərdə düşmən gülləsi ilə birdəfəlik susduruldu.

Bir gəncin də baharı qara gəldi, arzuları açılmamış soldu.

Bir oğuldu tale onu tez dərdi
Gödək ömrü daşüstündə göyərdi.
Anası olanlar nə bəxtəvərdi
Sağalmaz dərdimin dərmanı gəlsin,
Ay ellər, çağırın Habilim gəlsin.

Şahvələd kişinin zəhmətkeş ailəsində göz açan, "xeyirli övlad olsun" xeyir-duası ilə böyüyən oğul, doğrudan da, el-oba, vətən üçün xeyirli övlad oldu. Amma, bilinmədi ki, iç dünyasında hansı arzularla yaşayırdı, hansı xəyallarla, ümidlərlə "gələcək" quracaqdı özünə. İç dünyası açılmamış qaldı bu xeyirli övladın. Bayrama hazırlaşan, bayrama tədarük görən ailəyə bu bayram oğul itkisi ilə gəldi.

Onsuz da dünyaya gəldiyimiz kimi, bir gün də köçəcəyik. Amma köçənlərlə şəhid olanların fərqi odur ki, şəhidlik haqq vəədalət simvolu olmaqla yanaşı, Tanrının ən sevimli bəndələridir. Şəhid – tarixdə qalan, daim xatırlanan, tarixdən bac alandır. Bəli, Habil və digər şəhidlər cismən yoxdurlar, amma onların ömrü torpaq qədər əzəli vəəbədi olaraq davam edəcək. Onlar bir daha öz əməlləri, cəsurluğu ilə sübut etdilər ki, varlığında ləyaqət, qeyrət, cəsarət və düşmənə nifrət gəzdirən hər kimsə, el gözündə ucala bilər. İnsanın əməlləri özündən sonra yaşayarsa, demək, ömrünün davamı ölümündən sonra başlayır. Nə qədər ki, Bayramov Habil Şahvələd oğlu kimi oğullarımız var, bu torpaq

Vətən adlanacaq, Vətən olacaq və bu torpaqda nə qədər desən, vətəni qoruyacaq oğullar böyüyəcək, Vətən adlı torpaqdan güc alacaq, düşmənə qalib gələcək...

Şəhidlərmizin ömrünün davamı ölümündən sonra başlayır...

Şəhidlər ölmürlər – onlar toxum kimi torpağa əkilir yenidən cücərib göyərmək üçün...

Şəhidlik –Əbədi bir həyat deməkdi.

Şəhidlik –Əbədi səadət deməkdi.

HABİLİM

Yarı, yoldaşı vardı,
Dostu, sirdaşı vardı.
Necə qıydı bəs əcəl?
İyirimi yaşı vardı
Habilin.

Dildə sözü qalıbdı,
Eldə gözü qalıbdı,
Sadıqlım, ay Sadıqlım,
Sizdə izi qalıbdı
Habilin.

Qəlbi bahar oğuldu,
Bahar fəsli doğuldu.
Baharı qara gəldi,
Arzuları boğuldu
Habilin.

ANAM DA YOX AĞLAYA...

Xələfov Qərib Telman oğlu
(1974 – 1994)

Hər əsgər qoçaq olsun,
Vətənə dayaq olsun.
Təki, vətən yaşasın
Təki, vətən sağ olsun.

Övlad itkisi, çox ağırdır. Tanrı qıymasın... Qərib döyüşə gedəndə anasıŞölə xanım da həyatda yox idi ki, ciyərparasına xeyir-dua verə, arxasınca su ata...

1974 - cü ilin ən gözəl payız fəslində - oktyabrın 26-da dünyaya göz açmışdı Telman kişinin Qərib oğlu.

Orta təhsilini qonşu Muğanlıda - Peşə Məktəbində almışdı. Məktəbi bitirdikdən sonra həqiqi hərbi xidmətəçağırılıb və birbaşa Bakıya göndərilib. Yaşmada təlim məşqləri keçən Qərib 2 aydan sonra Tərtərə - 703 saylı hərbi hissəyə göndərilib. Tərtər-Ağdərə istiqamətində gedən döyüşlərdə yaxından iştirak edib.

1992-ci il yanvarın 14-də Tərtər və Ağdərə rayonlarına düşmən hücumları başlayanda, ən qaynar nöqtələrdə vuruşub, kəndlərin müdafiəsində dayanıb. Elə o vaxtdan da mehrini, məhəbbətini torpağa, yurda bağlamışdı Qərib.

Ax, sinəmin sinə dağını dağlayan Qərib kimi, anasız körpələr!

Şeirimi edibdi sözləri yaşlı,
Anasız körpənin yaşlı gözləri.
Məni də eyləyib gözləri yaşlı,
Anasız körpənin yaşlı gözləri.

Ana nəvazişindən məhrum körpə Qərib böyüdükcə, anasızlığını qismən unudacaq, ailə qurub özü də ata olacaqdı. Amma amansız müharibə, adı Qərib, özü qərib bu kimsəsizə bunu da çox gördü, aldı əlindən bütün ümidlərini, qırdı arzularını, darmadağın etdi həyatını. Son döyüşü Tərtər rayonunun Şəhriyar qəsəbəsində oldu. 1994 - cü il yanvarın 14 – də döyüşlərə atılan Qərib 1994- cü il aprelin 24 – də Tərtər rayonunun Şəhriyar qəsəbəsində gedən ağır döyüşlərdə itkin düşdü. İtkin düşən Qəribin nə səsi-sorağı gəldi, nə də yeri bilindi. Yerəmi batdı, göyəmi çəkildi Qərib, gördüm deyən olmadı. Nəəsir düşənlər, nə də ölənlər cərgəsində tapılmadı. Nə hərbi komissarlıq, nə xidmət etdiyi hərbi hissə onun haqqında heç bir məlumat əldə edə bilmədi.

Bu an hər tərəfdən min fəryad qopdu...

Hər şəhid bir qanlı kitab, könüllərdə min fəğan...
Ax... könlümün könlü...
Yenə öz əliylə özünü döyür,
Yazdı bu sözləri əli könlümün.
Dilini qınayır, sözünü döyür,
Zənciri çatışmır dəli könlümün.

Sinəmdə yaralı könül görünür,
Könüldən aralı könül görünür.
Nə qönçə görünür, nə gül görünür,
Haçan açılacaq gülü könlümün?

Başa hər düşən daş, baş daşı deyil,
Gözümdə qəmlə həzz yanaşı deyil.
Üzümdən süzülən göz yaşı deyil,
Axır Araz kimi seli könlümün.

Yanıram, kim məni yanan sanır ki?
Axı yanmağıma kim inanır ki?
Elə alovlanır, elə yanır ki,
Başıma tökülür külü könlümün.

Ağlayan yaxşıdı, gülən yaxşıdı?
Yaşayan yaxşıdı, ölən yaxşıdı?
Allahım, sən özün bilən yaxşıdı,
Tək sənə açılır dili könlümün.

Xələfov Qərib Telman oğlunu - anasız bir körpəni də beləcə, uddu amansız düşmənçilik.

Yenə həlak olduğu yer, yatdığı məzar məlum olsaydı, doğmaları üçün bir təsəlli olardı. Bəlkə də hansısa naməlum əsgər məzarında uyuyur Qərib... Doğmalarının gözü hələ də yoldadır. Bəlkə sağdı Qərib, bəlkə qayıtdı deyə....

Şəhid olan övladlarımız Vətən uğrunda öz canlarını fəda etdiklərinə görə, ölməzlik qazanıblar, elin, obanın, xalqımızın qəlbində daim yerləri var, daim yaşayacaqlar. Daim hörmət və ləyaqətlə anılacaqlar. Şəhidlik zirvəsini fəth edən bu igidlərin ruhları hələ ki, narahatdır. Yalnız kafirin tapdağı altında inləyən torpaqlarımız azad olunduqdan sonra onların ruhları dinclik tapacaq.

Ruhunuz dinc olsun, ey mənim əziz balalarım, siz ki, vətən uğrunda canınızı fəda edib, kəfəniniz olaraq, üç rəngli bayrağı seçmisiniz, deməli, şəhidlik zirvəsinə ucalmısınız. Siz rahat uyuyun, yeriniz nurla dolsun...

Ey mənim əziz şəhidim... Qəribim! Adın kimi məkanın da qərib oldu, bala, haradasan sən? Vətən səni çağırır!

Adı Qərib qoyuldu,
Adıtək qərib oldu.
Bir neçə il döyüşdü,
Düşmənəəsir düşdü...
Ay Qərib hardasan sən?
Vətən səni çağırır!

Artıq iyirmi ildir,
Xəbər yoxdur Qəribdən,
Bu, az müddət deyildir,
Ay Qərib, hardasan sən?
Vətən səni çağırır!

Söyləyirlər atalar:
"Geyməyə kətan yaxşı,
Gəzməyə qərib ölkə,
Ölməyə vətən yaxşı."
Ay Qərib hardasan sən?
Vətən səni çağırır!

Qayıt, ey igid əsgər
Düşdüyün qərib ölkə
Sənə zindandan betər
Vətən səni çağırır!

Atalar, ay atalar,
Qərib ölkə nədən xoş?
Güləmailsə deyir:
-Gəzməyə də vətən xoş,
Ölməyə də vətən xoş.
...Ay Qərib, hardasan sən?
Vətən səni çağırır!

26.10. 2007

XONÇASI BAĞLI QALANLAR

Ramizov Məcid Binəli oğlu
(1970 – 1992)

Qəlbi fərağlı qaldı,
Sinəsi dağlı qaldı,
Təzəcə evlənmişdi,
Xonçası bağlı qaldı.

Ramizov Məcid 1970 - ci ildə Ağstafa rayonunun Sadıqlı kəndində zəhmətkeş bir ailədə həyata vəsiqə almışdı. Onlar ailədə 8 uşaq olmuşlar. 1977 – ci ildə Sadıqlı kənd orta məktəbinə getmiş, 1987 – ci ildə həmin məktəbi başa vurmuşdu.

1988–1990-cı ildə - Azərbaycan Sovet İmperiyasının tərkibində olduğu bir vaxt o, Almaniyada hərbi xidmətdə olmuşdur.

Uşaqlıqda sürücü olmaq istəyib, idmana da həvəsli olub. Sadıqlı Meşə Kompleksində traktorçu işləyirmiş. O, uşaq olsa belə çox zəhmətkeş, çox çalışqan idi, deyir əmisi oğlu Elşən. Onu da deyir ki, pəhləvan cüssəli, yaraşıqlı, qaynar təbiətli bir gənc

idi.Vətənini, elini-obasını, torpağını sevən qəhrəmanlıq mücəssəməsi idi. Çünki o, vətən həsrətini, vətən yanğısını dadan nənə - babasından, ata-anasından duymuş, onların başlarına açılan müsibətləri az eşitməmişdi Məcid. Qaniçən Stalinin əmri ilə 1943-cü il noyabrın 16-da Gürcüstan Respublikasının Axalkələki vilayətinin Entel, Surdo və bir neçə kəndlərin əhalisi Orta Asiyaya - Özbəkistana sürgün edilmişdi. Özbəkistanın Buqa rayonuna kül töküb tam yerləşməmiş, yurd salıb yurdlaşmamış yenidən Azərbaycana sürgün etdilər.

Şəhid balamız Nuriyev Zabitin anası Zöhrə xanımın dedikləri: "Bütün Entel kənd əhalisinin kəndin klubuna yığışması və bir saat ərzində hazırlaşıb yola çıxmasına əmr verilmisdi.

Sevib-seçdiyi qızı - Gəncədə yaşayan Axalkələkilərdən (özləri kimi sürgün olanlardan) olan Şəkər xanımla (1992-ci ildə) evlənmişdi.

Azərbaycan öz ordusunu səfərbər etdiyi bir vaxtda Ramizov Məcid Binəli oğlu könüllü olaraq Milli Orduya getmiş və orada qəhrəmanlıqla döyüşmüşdü.

1992-ci il tarixində Ağdam rayonunda - Fərrux yüksəkliyi uğrunda gedən döyüşdə şəhid olmuşdu.

Döyüşə yollanan Məcidin barmağı xınalı, xonçası bağlı qalmışdı.

Bunları duyub-düşündükcə, sanki qələmim də hönkürürdü. Amma yaxşı ki, bu ömür yoluna cığır

açan xatirələr yol bələdçimdi. Çox kövrəldim, çünki sevib-seçdiyi qızın əllərini qoynunda, gözünü yollarda qoymuş qaynar təbiətli bir gəncin həyat eşqi, Sevgilisinin xınalı barmağından torpağına sızırdı... "Axı xonçası baglı qalanların barmağından qan damır" deyirlər:

XONÇASI BAĞLI MƏCİD

Mərd oldu, igid oldu,
Başı papaqlı Məcid.
Döyüşdü, şəhid oldu
Əli yaraqlı Məcid.

Yolu boranlı, qarlı,
Qəlbi qəmli, qübarlı,
Ürəyi intizarlı,
Sinəsi dağlı Məcid.

Tale çarə qılmadı,
Qədəri qaçılmadı,
Xonçası açılmadı,
Xonçası bağlı Məcid.

2013

MAHİR ŞÜCAƏTİNDƏ...

Əfəndiyev Mahir Əhməd oğlu
(1967 – 1994)

Bu yara ağır yara,
Sən hara, yara hara?
Öldün vətən yolunda
Ölümə yoxdur çara.

1967 - ci ilin 1 iyul tarixində barlı-bəhrəli gözəl yay havasında Ağstafanın Sadıqlı kəndində anadan olmuşdu Mahir Əhməd oğlu.

1984-cü ildə Sadıqlı kənd orta məktəbini bitirmişdi.

1985-ci ildə hərbi xidmətə çağırılmş, keçmiş SSRİ- nin tərkibində olan Qazaxıstan vilayətində hərbi xidmətdə olmuşdu.

1987 – ci ildə hərbi xidmətini başa vurub Sadıqlı kəndinə - ana torpağa qayıtmışdı Mahir. Əsgərlikdə dustaqlar üzərində mühafizəçi işləyən Mahir kənddə mantyor işləyirdi.

1989–cu ildə qonşu kənddən, yəni - Köçvəlli sakini Ömər kişinin qızı Elmira ilə ailə qurmuşdu... sevib seçdiyi qızla.

Bir il sonra bu gənc ailədə körpə qığıltısı eşidildi. Adını Ləman qoydular.

Sonra ailəsi ilə birlikdə 1990-cı ildəƏli Bayramlı (indiki Şirvan) şəhərinə köçdülər. Mahir həmin şəhərdə Dəmir-beton məmulatları zavodunda çalışırdı. Özünə yenicə ev-eşik qurmuş, qol, qanad açmışdı sanki...

Az bir müddətdə iş yoldaşları arasında böyük bir nüfuz qazanmışdı. Böyük nüfuz sahibi olan Mahir Əhməd oğlu 1993-cü ildə doğma vətəninin müdafiəsi üçün könüllülər dəstəsinə qoşuldu. Baş verənləri cəbhə gündəliyinə qeyd elədi, tarixin yaddaşına köçürməyə çalışdı. Döyüş yollarını tarixə yazdıran bu gündəlik hələ bitməmişdi. Görəsən, bu cəbhə gündəliyinə bir əsgər dünyası sığışacaqdımı? Düşüncələrini tamamilə yazmışdımı bu gündəliyə. Bəlkə də hə, bəlkə də yox.

Azərbaycan vətəndaşı olduğu üçün fəxr edir, onun müstəqilliyinə sevinirdi Mahir. Cibindən çıxan gündəliyindən aydın olur ki, 13 gün Füzulinin Kərimbəyli, Seyidəhmədli, Aşağı Bəhmənli, Yuxarı Bəhmənli kəndlərində döyüşüb Mahir. Sonra müharibənin qaynar bir vaxtında Tərtərə gedib, döyüşlərdə iştirak edib.

Döyüşdə olduğu müddətdə bir neçə dəfə yaralanıb, amma evə getməmiş, öz istəyi ilə hərbi hissə-

dəmüalicə olunmuşdu. Vətəni düşmənə verə bilməzdi Mahir.

Şah damarımı -
necə kəsim mən?
axan qan...
Vətənimdir!
Vətənimdir!
Vətənimdir!

Bəli, damardakı qanının son damlasına qədər vətəni üçün savaşmalı idi Mahir. Bax, belə mərd, mətin, dəyanətli, dönməz və sücaətli idi.

Tərtər rayonunun Həsənqaya kəndinə (bu kəndi ermənilər Marquşavan adlandırır) qəfil hücum zamanı Mahir ağır yaralanır:

Bu yara ağır yara,
Sinəmdə qan ağlayar.
Körpəm qübar bağlayar,
Dinməz, o, hey ağlayar.

Bu yara, o yaradan deyildi. Cəbhədə Mahirin yaralarını sarıyıb sağaldan həkim də çox çıxılmaz vəziyyətə düşmüşdü. Bu, ölüm yarası idi. Namərd düşmən gülləsi Mahirin daxilini param-parça etmişdi...

1994-cü il aprelin 28 – də Tərtərin yaxınlığındakı kənd uğrunda qanlı döyüşdə həlak oldu, şəhidlik zirvəsinə ucaldı. Bax, onda Mahirin cəmi 27 yaşı vardı.

Mahir Sadıqlı kənd qəbiristanlığında dəfn edilib. Allah rəhmət eləsin!

Mahir müharibədə iştirak edən zaman artıq Ləman 3 yaşına çatmışdı. Ata həsrəti ilə yaşayan bu qızcığaz çox kövrək, çox duyğusal olmuşdu...

Anası Elmira xanım deyir ki, qızım Ləmanla atası Mahirin qəbri üstünə gedəndə o qədər ağlayır... ağlayır ki...

Deyirəm, ay bala, niyə bu qədər çox ağlayırsan, axı sənin heç dörd yaşın da olmamışdı atan vətən uğrunda döyüşəndə, heç xatırlamırsan da...

Axı neynəsin Ləman! Nə ata sevgisini gördü, nə ata nəvazişi. Elə körpəlikdən ataya həsrət qaldığı üçün də ağlayır. Amansız müharibə atalı dünyasını dağıtdı onun. İndi ata yoxluğu Ləmanı göyüm – göyüm göynədir.

Ləman atasını ona yazdığı "Ata" şeiri ilə haraylayır:

Mən sənsiz həyatda yalqızam, ata!
Məni yalqız qoyub hara gedirsən?
Axı, mən hələ də, sənsizəm, ata,
Məni sənsiz qoyub hara gedirsən?
Ağlaya-ağlaya buraxıb məni,
Gözümdə yaşlara atıb gedirsən.
Yaşaya bilmirəm, buraxma məni!
Məni tənha qoyub gözdən itirsən.

-Ləmandan soruşdum: Qızım, nəəcəb oğlun atanın adını daşıyır?

-Qayınatam Ömər kişi bu adı ona verib. O, belə istədi. Dedi, nəvəmin adını Mahir qoyacağam. Elə də etdi.

Mən bütün şəhidlərin ruhu qarşısında baş əyir, Ömər və Ömər kimi kişilərə minnətdarlığımı bildirirəm. Elmira xanım kimi bir üzü qız, bir üzü gəlin olan qeyrətli, iradəli, əhd – peymanlarına sadiq olan qızlarımıza da xalqımız adından təşəkkür edirəm.

Mən Mahirin həyat yoldaşı Elmira xanımla, qızı Ləman və nəvəsi Mahirlə fevral ayının 17-də görüşdüm. Elmira xanımın söylədikləri qələmin dili ilə misralara çevrilib vərəqlərə axdı.

Ona Sadıqlı candı,
Ona Sadıqlı qandı,
Sadıqlıda şəhid çox
O da Sadıqlıdandı.

Elə igid hayanda?
Elər hansı yanda?
Doğuldu Sadıqlıda,
Öldü Həsənqayada.

Müdhiş zamandı, zaman,
Qıydı ataya dövran.
Körpə bir qızı vardı,
Yetim böyüdü Ləman.

Adı – məharətində,
Özü – ləyaqətində,
Çoxlu igid böyüyür
Mahir sücaətində.

17. 02.2014

BAHARI QIŞA DÖNDÜ...

Omarov Ariz Nəriman oğlu
(1974 - 1994)

Ananın dilindən:

Axıtmısan qan, bala,
Qan candan nişan, bala,
Şəhid oğul, can oğul,
Şəhid bala, can bala.

Adətən, bahar fəslindən sonra yay, payız, sonda isə qış gəlir. Heç zaman bahardan sonra qış olmur. Arizin taleyində isə hər şey tərsinə oldu...

1974-cü il yanvarın 7-də - qışın oğlan çağında dünyaya gələn körpə başına gələcək qəzavü-qədərdən xəbərsiz böyüməkdə idi. Bütün doğulan uşaqlar kimi böyüyürdü, dil açmağı, yeriməyi, məktəbə getməyi – hər şeyi adi qaydada idi.

1981-ci ildə birinci sinfə getdi. Əlinə qələm alıb yazmağı, oxumağı öyrəndi, boy atdıqca arzuları da boyüdü.

1991-ci ildə orta məktəbi bitirmisdi. Tay-tuşlarının hərəsi bir sənətin arxasınca getmişdi.

1989-cu ildə o, Böyük - Kəsik Atçılıq sovxozunda sürücü işləməklə kifayətləndi.

Vətən qarşısında borcunu vermək vaxtı çatmışdı.

1992-ci il noyabrın 19-da hərbi xidmətə yola düşdü. Bu dövr artıq erməni quldurlarının quduzlaşan, həddini aşan vaxtları idi. Hərbi xidmətini başa vuran, başqa ölkələrdə yaşayan vətən övladları da torpaq harayına yetişməyə can atır, könüllü taborlar, bölüklər yaradıb, Qarabagı murdar nəfəslərdən qorumağa çalışırdılar. Ordumuz yeni yaranırdı. Ariz 6 nəfər əsgər yoldaşı ilə tabora ilk yazılanlardan oldu. Sürücü idi, işinin öhdəsindan bacarıqla gəlirdi. Cəld, çevik idi, ilk gündən qayda-qanuna, nizam-intizama ciddi əməl etməsi hər kəsdə rəğbət qazandırdı ona.

Od – alovdan, doyüşdən qorxmazdı Ariz, həmişə irəli can atmağa, çətin işlərin öhdəsindən gəlməyə çalışırdı. Son doyüşü Ağdam rayonunun Qərvənd kəndində oldu.

Yanvar ayının 12-si idi. Soyuq qış küləyi adamın iliyinə işləyirdi. Üç gün əvvəl yoldaşları onun doğum gününə yığışmışdılar. Təbiətin qış vaxtı olmasına baxmayaraq, omrünün baharı başlayırdı. Hələ bundan sonra omrü qol-budaq atacaq, çiçəklənəcək, ümidləri, arzuları göyərəcəkdi. Amma fələyin oyunlarından kim baş çıxarır ki?

Atalar yaxşı deyib: “Sən saydığını say, gör fələk nə sayır.” Sən demə, bu qış, onun ömür baharını solduracaqmış. Nəriman ata da, ana da, elə bil duyub, hiss ediblərmiş gələn tufanı. Ancaq ürəklərinə daman hissi özlərindən uzaq etməyə, bir-birinin gozündən gizlətməyə çalışıblar elə bil. Daxilən isə...

O gün.. Ariz 27 nəfər şəxsi heyəti maşınla aparırdı. Qəflətən açılan snayper gülləsi onun ürəyinin başında saxladığı sənədləri parçaladı.

Yaz ümidli, bahar arzulu bir ürək susdu, bir ömrə son qoydu güllə!

Daha Nəriman ataya ünvanlanmış Ariz imzalı məktublar olmayacaqdı. Bu məktublarda Ariz tezliklə murdar ermənilər yerlərində otuzduracaqlarına söz verirdi...

Bir daha səngərdən məktub gəlməyəcəkdi Nəriman ataya.

Ah... müharibələr... müharibələr...

Komandanlıq tərəfindən dəfələrlə təşəkkürə layiq görülmüşdü, onun cəsurluğu, dəyanəti, qorxmazlığı dildən-dilə keçib yaddaşlara hopmuşdu.

O, 1994-cü il yanvarın 12-də Ağdam rayonunun Baş Qərvənd kəndi uğrunda gedən döyüşlərdə şəhid oldu. Təxminən, saat 18 radələrində doğma Sadıqlı kəndinə döndü... ancaq silahdaşlarının çiynində... Cismən ata-anasına qovuşsa da, ruhu əsir düşən torpaqlarda qaldı Arizin....

Beləliklə, Omarov Ariz Nəriman oğlunun adı şəhidlər sırasına yazıldı, xalqın qəlbinə igid, qəhrəman bir oğul kimi həkk oldu. Sadıqlı kəndinin, Qarayazı havasının, suyunun, çörəyinin halallığı, saflığı, təmizliyi ilə böyüyən bu övlad, qısa, lakin mənalı ömür yaşadı.

Şəhidlik zirvəsinə ucaldı, mənim vətən oğullarım...

Axı: Şəhidlik - əbədi bir həyat demək,
Şəhidlik –Əbədi səadət demək.
Günəşəbədi həyatdırsa -
Günəşdəki qızartı belə şəhidlərin qanıdı...

Bütün şəhidlərmizə Allah rəhmət eləsin! Ey əziz balam, Arizim, yerin nurla dolsun. Şəhid qəbrin səngər olsun Vətənə!

Anama deyin - daha məktubumu gözləməsin... Şəhid qəbrim səngər olsun Vətənə...

Anama deyin ki, qəbrim qazılıb,
Daha məktubumu gözləməsin qoy.
Deyin ki, alnıma ölüm yazılb,
Daha məktubumu gözləməsin qoy,
Şəhid qəbrim səngər olsun Vətənə!

Deyin ki, ürəkdə qaldı sözləri,
Çox arzu – diləkdə qaldı sözləri,
Daha yol çəkməsin ana gözləri,
Daha məktubumu gözləməsin qoy,
Şəhid qəbrim səngər olsun Vətənə!

Deyin ki, taqəti yoxdur qolunda,
Əcəl sağındadır, ölüm solunda,
Canı fəda oldu vətən yolunda,
Daha məktubumu gözləməsin qoy,
Şəhid qəbrim səngər olsun Vətənə!

Gözləri kor olan ana hələ
dəəsgər məktubu gözləyir...

07.02.2007

ATAM KİMİ HƏRBÇİ OLACAĞAM

İbrahimov Nazim Tofiq oğlu
(1967-1994)

Dürdür şəhidin qanı,
Zərdir şəhidin qanı,
Mənə də qismət oldu
Zər axtarmaq imkanı.

Öz-özümə fikirləşirəm: İlahi, yer üzünün əşrəfi sayılan, canlıların ən ağıllısı olan insanlar nədən bir-birinəəl qaldırır, öldürür, insana xas olmayan hərəkətlərə yol verirlər. Bu, necə olur axı, nədən irəli gəlir? Axı, vəhşi, yırtıcı heyvanlar belə hərəkətlər etmir. Bəs insanlar niyə kəndlər, şəhərlər yandırır, xarabalığa çevirir, körpələri yetim, qadınları dul, anaları gözü yaşlı qoyurlar? Nədir axı bu insanların günahı?

Körpə Süleymanın günahı nə idi ki, ata həsrəti, ata nəvazişi duymadan, tay-tuşlarını atası ilə birlikdə görəndə dərindən köks ötürsün, həsədlə onların dalınca baxıb, “kaş mənim də atam sağ olaydı”-desin.

Niyə o, şəhid balası kimi böyüdü? Səyalı ananın günahı nə idi ki, nəvəsi Süleymanın "atam hanı?" suallarına cavab axtarsın, yana-yana, dərdini içinə salıb ağrısından qıvrıla-qıvrıla min cür bəhanələrlə körpənin könlünü ovutmağa çalışsın.

Gülarənin günahı nə idi ki, sevib-seçdiyi, ailə qurduğu Naziminə həsrət qalsın... Eh... Nə yaxşı ki, Süleyman var idi. Nazimin yoxluğunu qismən unudacaq, sağalmayan yaralara məlhəm olacaq, həm Səyalı ana üçün, həm Tofiq ata üçün, həm də Gülarəüçün. Özü də atası ilə fəxr edir. "Atam kimi hərbçi, ya da polis olacağam" - deyir. Vətənin üçrəngli bayrağını uca tutmaq, düşməni torpaqlarımızdan qovub çıxarmaq, yurdu azad etmək üçün...

1993 – cü ildə anadan olub Süleyman, vətəninə atası kimi vurğundur o da. Atası kimi onun da ürəyində düşmənə nifrət, kin yuva salıb.

İbrahimov Nazim Tofiq oğlu. Bu ad Sadıqlı kəndində digər şəhid oğullar kimi hörmətlə anılır.

1967–ci ilin avqustunda - gözəl bir yay səhərində anadan olmuşdu Nazim.

Anası Səyalı xanım oğlu Nazim haqqında danışdıqca kövrəlir; İlahi, nə qədər ağırmış ciyərparanın yoxluğu ilə barışmaq, onun haqqında xatirələri birbir çözmək.

Neynim, ey Səyalı bacım,
Xatirələr çox uzaqdan gəlir,
Dağları, daşları dolaşıb gəlir
O uşaqlıq illərimə boylanır,
Ürəyimə min kədər, qəm ələnir,
Görünməz xəyallarım, atın çapır
Heey... o dağların cığırlarında dolanır,
Əllərimdəki bu xına dağların daşı.
Bulaqlarından axan gözlərimin yaşı,
Ürəyimdəki bu yara
Həsrətin döydüyü xaldı vallah!

1986-cı ildə orta məktəbi bitirdikdən sonra o, Sovet ordusunda RF-in Penza vilayətinin Kuznetsk şəhərində xidmət edib. Hərbi xidməti başa vurduqdan sonra alnının təri, əlinin qabarı ilə ailəsini dolandırıb.

1992-ci ildə həmkəndlisi Gülarə Abdulla qızı ilə evlənir. Nazim də digər oğullarımız kimi 1993–cü il martın 20-də könüllü olaraq, Ağstafa rayonunun Köhnə Qışlaq kəndinə - döyüşlərə yollanır. Hələ döyüşlərin birində yaralanmışdı da... Ağstafa rayon Mərkəzi Xəstəxanasında üç ay müalicə aldıqdan sonra yenidən döyüşə yollandı. Deyirmiş ki, düşmənə tam qalib gələnə qədər vuruşacağam. Ermənilərin azğınlığına dözə bilmirdi, onlara qan udduracağına and içmişdi: “Hələ uşaqlıqdan üzü-yola, gülərüz və işgüzar idi” - deyir Səyalı ana. Gözləri önündə Nazimin körpəliyi, böyüməyi

mərhələ-mərhələ, hissə-hissə canlanır, sanki kino lenti kimi ötüb keçir xəyalından. Qohum-qardaş, qonum-qonşu arasında kiçik yaşlı olmasına baxmayaraq, hörmət qazanmışdı, böyük nüfuza malik idi. Evdə, ailədə nə qədər ciddi olsa da, bir o qədər mehriban, böyük-kiçik yerini bilən idi.

Nazim döyüşdə olan zaman - 1993-cü il iyulun 22-də oğlu Süleyman dünyaya gəlib. O gün pulemyotdan atəş açaraq, erməninin xeyli sayda canlı qüvvəsini məhv etmişdi Nazim.

Təəssüf ki, Nazimin sevinci uzun çəkmir. Artıq oğlu Süleyman 6 aylıq idi. Körpə qığıltısı həzin bir musiqi kimi doğmalarının könlünü ovsunlayırdı.

1994-cü il 22 fevral... Köhnə Qışlaq kəndində güclü döyüş gedirdi. Nazim o gecə postda idi.

Ananın gözünə yuxu getmədi səhərə kimi, ürəyi sancdı. O gün hava da donmuşdu elə bil. Nazim döyüşçü yoldaşı və dostu Vəli ilə birlikdə səngər daşına söykənib düşmən postunu hədəfə almışdı. Sən demə, quldur dəstəsi onların hər addımını izləyirmiş.

Bu döyüşdə Nazim mərdliklə vuruşdu, ölümün gözünə dik baxa-baxa fani dünyayla vidalaşdı, dostu isə ağır yaralandı. Nazim Sadıqlı kənd qəbiristanlığında dəfn olunub. Bu da tarixin qanlı bir səhifəsidir...

İgidlər, qəhrəmanlar at belində doğulsa da, bu şərəfli ad döyüş meydanında, oğulların canı, qanı bahasına qazanılır.

Vətəni candan artıq sevərsənsə, ana torpaq səni bağrına basar, əzizlər.

Tanrı Süleymana yar olsun, Nazimin yarımçıq arzularını yaşatsın, həyata keçirsin, yarıda qırılmışömrünü mərdliklə başa vursun! Atasının şəhidliyi ilə qürur duymasına baxmayaraq, atasızlığın nisgili gözlərinin dərinliyindən boylanır Süleymanın:

Deyir Süleyman bala:
Kaş, atam sağ olaydı!
Cavab tapmır suala,
Kaş, atam sağ olaydı!

Kaş, atam sağ olaydı!
Eşidəydim səsini.
Amma o, şəhid oldu.
Döyüşüb el yolunda
Mərd oldu, igid oldu.

Kaş, atam sağ olaydı!
Eşidəydim səsini.
Kaş girəydi səngərə,
Axı ermənilərlə
Döyüş bitməyib hələ,

Kaş, atam sağ olaydı!
Eşidəydim səsini.
Gedəydi döyüşlərə...

Kaş, atam sağ olaydı!

Ey əziz Süleyman balam, göz nurum!
Axı Şəhidlik cihaddır – ibadət deməkdir.

Axı şəhidlik - əbədi həyat deməkdir...

VƏTƏN UĞRUNDA

Azərbaycanın Milli Qəhrəmanı
Alıcanov Rafiq Cəfər oğlu
(1965 – 1993)

Quş quşluğu iləçöp daşıyıb, yuva qurmaq, bala çıxarmaq, onu pərvazlandırıb göy üzünün maviliyinə doğru uçurmaq istəyir. İnsan da eləcə... millətin yuvası da vətəndir!

İnsan həmişə vətənə arxalanar, yurd-yuvasını kərpic-kərpic tikər, qurar, ucaldar. Dünyanın harasına düşdüyündən asılı olmayaraq, insanın fikri, düşüncəsi, gözü, könlü vətənlə olar. Vətənsiz heç nə yoxdur!.. Qəfəsdə illərlə susmuş bülbülü azad etdilər, uçub qaratikan koluna qondu "vətən, vətən!"–deyəçağlar səsiyləötdü.

Ulu Tanrının bizə verdiyi bu cənnət vətəni sevmək, boyunu oxşamaq, göz - bəbəyi kimi qorumaq bizim müqəddəs borcumuzdur. Vətən sevgisi sevgilərin ən ülvisidir. Təmiz duyğuların qaynağıdır vətən!

Uca peyğəmbərimiz gözəl demişdir: "Vətən sevgisi imandandır!"

Qazax mahalının Kəmərli kəndində 1965-ci il iyulun 11-də dünyaya göz açan Rafiq Cəfər oğlu

Alıcanov da Vətənin dar günündə harayına yetişən oğullardan biri idi. Uşaqlıqda ailəsi ilə birlikdə Ağstafa rayonunun Köçvəlli kəndinə köçmüşdü. Orta məktəbə də orada getmiş, səkkizinci sinifdən sonra Muğanlı kəndində oxumuşdu Rafiq. Muğanlı kənd orta məktəbini başa vurduqdan sonra isə, Kalininqrad şəhərində yerləşən Ali Hərbi Məktəbdə təhsil alıb mühəndis-mexanik ixtisasına yiyələnmişdi. Bir müddət Ukraynanın Dneprodzerjinsk şəhərindəki hərbi hissədə xidmət etmiş, tabor komandiri olmuşdu. Vətənin dar günündə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Rafiq Alıcanova peşəkar bir mütəxəssis kimi böyük ehtiyac olduğunu bildirmiş, Rafiq isə bircə an belə vaxt itirmədən 1992-ci il avqustun 25-də Azərbaycana dönərək, Tovuz rayonunun Düz Cırdaxan kəndində, sonra isə, Gəncəşəhər 200 saylı hərbi hissədə“mühəndis-istehkam”şöbəsinin rəisi kimi işə başlamışdı. Rafiqin döyüş yolları Qazax, Ağstafa, Tovuz, Gədəbəy, Kəlbəcər, Ağdam, Tərtər, Füzuli, Zəngilan, Naxçıvan və bir sıra başqa cəbhə bölgələrindən keçmişdir. O, 1993-cü il noyabrın 5-də Füzuli rayonunun Kürdmahmudlu kəndindəşəhidlik məqamına ucaldı. Vətən uğrunda canından keçdi, ömrü vətənin ömrünə calandı... 28 yaşlı kapitan Rafiq Alıcanov, beləcə, əbədiyyətə - ölməzliyə qovuşdu...

Şəhidlik zirvəsi vətən sevgisinin zirvəsi deyilmi? Bu zirvədən uca, müqəddəs nə ola bilər ki? Şəhidlər heç vaxt ölmürlər, onlar diridirlər, həyatdadırlar, dünya durduqca yaşayacaqlar.

Dostlarının, doğmalarının yaddaşında Rafiq Alıcanov əsl dost, sədaqətli oğul, qəhrəman vətənpərvər kimi qalacaqdır. Elmira xanım igid oğluyla, Bəturə xanım cəsur ömür-gün yoldaşı ilə fəxr edə bilər. Rafiq indi Azərbaycanın oğludur, ŞƏHİD ANASI!

1994-cü il sentyabrın 16-da Azərbaycan Prezidentinin 203 saylı sərəncamına əsasən, Alıcanov Rafiq Cəfər oğluna Azərbaycanın Milli Qəhrəmanı adı verildi. Alıcanov Rafiqin oxuduğu Köçvəlli kənd orta məktəbi indi onun adını daşıyır. Oxuduğu məktəbdə və Ağstafa rayonunda onun büstü qoyulub. Vaxtilə yaşadığı Qaraçuxur qəsəbəsində (Bakı şəhəri) də Rafiq Alıcanovun adını daşıyan küçə var.

...Sən namus, qeyrət qalası, ömür-gün dostun Bəturə xanımın, adınla fəxr edən, qürur hissi keçirən balaların Mələyin, Elvinin qəlbindəəyilməzlik timsalı kimi qalacaqsan, əziz qardaşım, rahat yat!.. İnanıram ki, onlar sənin yarımçıq qalmış arzularını yaşadacaqlar.

Allah sənə və bütün şəhidlərimizə rəhmət eləsin! İnanıram ki, torpaqlarımız düşmən tapdağından azad olacaq! Şəhidlərimin ruhu rahatlıq tapacaq!

Qəhrəmanlığa üz tutan igidim... Rafiq Alıcanov...

HARA GEDİRSƏN BELƏ
(poema)

Fərrux dağından
Yol alıb yola düzəldim.
Saçımı dağların mehi
daradı...
Sənin sorağınla,
sənin adınla
bir səhər Qazax mahalının
Ağstafa rayonunun
Köçvəlli kəndinə gəldim.
Sən Kəmərli kəndində doğulub
Köçvəlli kəndində
boya-başa çatdın,
əziz qardaşım!
Ata ocağıdı balaca yurdun.
Büstünlə danışıb üz-üzə durdum.
Qəlbim qan ağladı
"bir şəhid dastanı yaz" dedi...
Allahım
Rafiqin taleyini belə yazdı.
Payızdı, qışdı, şaxtalı ayazdı.
Bəxt yazan ağı götürüb,
qara yazdı.
Yollar buz bağlayıb,
qarla örtüldü.
Göylərdə qara bulud,

Gözündən qan-yaş tökür.
“Qonşuların” bu zülmünə
Allahım daş tökür.
Payızın gur yağışı,
qışın şaxtası.
Dəstəmiz
yeni döyüşlərlə
yollarda...
Füzulinin -
Kürdmahmudlu kəndində
Kəşfiyyatçı döyüşçümüz
cığır, iz axtarır...
Elə bil, kül altında
mürgü döyən
köz axtarır.
Hər izdə -
ötən qanlı döyüşlər
Səpələnib dağa, daşa,
yamaca, düzə.
Döyüşdə vurulan əsgərin
qanlı köynəyi kimi
lalələr çıxıbdı dizə.
Hər cığırda bir hiylə,
bir fitnə, bir tələ...
Qarşıda döyüşlər
var hələ.
Gör qulağıma nələr pıçıldayır
dolaylar, cığırlar, izlər...

Bu, sənin yurdundu,
göy üzü, dərələr, düzlər...
Xatırladır
Qanlı-qadalı döyüşlərin
əks-sədasını.
Üzü üstə düşüb qalmış
daşlar danışır
bu yerin əfsanəsini.
Lənət oxuyuram
"qonşuları"n yaratdığı
fitnəyə, felə.
Hirsimi sıxıram dişimə:-
Qarşıda döyüşlər var hələ!
Əsir Qarabağım fəlakətdədir,
Mən indi bilirəm fəlakət nədir.
Qarğış eləyirəm tək bircə sətir:
Qoy olsun Quranım düşmənə qənim.
Vətənim!
Vətənim!!
Vətənim!!!
Dəyişən,
təkcə fikirlər,
duyğular deyil.
Sən demə,
baxan gözlər,
üzlər də dəyişərmiş...

Xəyalın, düşüncələrin, fikrin
sapındaca sıralanmışam...
Mənə elə gəlir ki,
Kainat da daha dəyişib,
dünya kiçilib.
Dünya neyləsin-
özündən ağırdı dərdi,
çəkə bilmir,
tərəzisi yox...

Ürəklər dərdli, yaralı...
O, cəsur, cüssəli, enli kürəkli,
hündür boylu, şux qamətli,
iti baxışlı, sərt davranışlı,
Yusif-Kənanı xatırladan
qəhrəman oğlum Rafiq də qayıtmadı...
Tarix özü yaddaşına yazdı
şəhid adını.
Ömrünü vətənin ömrünə caladı.
Vətən üçün, torpaq üçün,
Üçrəngli bayrağı ucaltmaq üçün.

Doxsan ikinci ilin yayında
Yaradıldı "könüllülər" dəstəsi.
Çətindir mənə, çətindir
bu misraları yazmaq.
Keçdiyi döyüş yollarının
ağrısına dözmək.

Hər bir cığırını,
izini, dolayını,
sözə-közə döndərib
ağ kağızda misraya düzmək.

Ürək ağrısı ilə,
çətinliklə yazıram
bu misraları mən.
Atılan hər bir güllə
gözləri yollarda qalan
ana-bacıların
gözlərinə dəyir...
Yazdığım misralarıma,
sözlərimə dəyir.
Mən bilmirəm
necə dözür bu dərdə
gül-çiçək bitirən
qara torpaq?
Baş əydiyim,
diz çökdüyüm
Ana torpaq...

Qara daşa dönür,
Yanır cəsədlər, kül olur
bir andaca,
bax, gör, nə qədər insan.

Yoxsa, sinələrdəşəhidlərin
yarasımı, qanımı?
Qərənfildə qızıl rəng
Şəhidlərin qanımı?

Bağrı xallı lalənin,
Rəngi də al-qırmızı,
Şəhidlərin qanımı?
Qan qara, qan qırmızı...
Şəhidlərin qanımı?

Üfüqlərdə qızartı,
Şəfəqlərdə qızartı,
Şəhidlərin qanımı?
Çöhrəm saralı qaldı...
Göydə, yerdə qızartı
Şəhidlərin qanımı?

Kor qalan ocaqlardan,
Sönən ümidlərin,
yetim qalan qız - gəlinlərdən,
söz deyib, dastan yazmaq...
Bu sözləri yazıram-fikirlərim
dolaşır, qələmim ilişir...
Ox olub qəlbimi deşir.
Bu an fikirlərim haçalaşır
duyğularım çaş-baş qalır.

Bu şeirdi,
yoxsa nə?... Nə?..
Durub dincələ bilmədim,
hey axdı göz yaşım...
Ürək dedi: - dinlə məni, dinlə
göz yaşın
dönməsin selə.
Tökülən göz yaşlarıyla,
ağlar sətirlərlə,
qaçqın arzularla,
hara gedirsən belə?
Axı Rafiq Alıcanovun,
şəhidlərin ruhunu incidirsən...
Hara gedirsən belə?
Sən bizə layla, bayatı oxu,
Şəhidləri oxşasın...
Yer də, göy də
toxtasın.
Hara gedirsən belə?
Gül-çiçək səp ki,
Şəhidlərin məzarını bəzəsin...
Hara gedirsən belə?
Axı biz günəşik,
axşamlar qüruba enirik.
Səhərlər təzədən doğulur,
təzədən dönürük.

Şair -
Nədir səndəki bu qorxu, bu təlaş?
Vətən üçün ölənlər varsa,
O da vətəndir!...
Biz bu vətən üçün ölmüşük!
Adsız-sansız bu döyüşdə
ad-san almışıq.
Vətəni ucaltmışıqsa-
Deməli, ucalmışıq.

Bu səslər-sədalar,
Vətənə haray salıb,
yayılıb...
Bu, zamanın hökmüdür,
Şəhid-zəfər oğludur.
Mənim qəhrəmanımsa
Rafiq Cəfər oğludur.

VƏTƏNDİR ŞƏRƏFİMİZ

Azərbaycanın Milli Qəhrəmanı
Tağıyev Şahin Talıb oğlu
(1949...)

Ellərimməəlvida,
Çöllərimməəlvida,
Bakıma xudahafiz,
Tərtərimməəlvida.

Şahin 3 fevral 1949-cu ildə Tərtər rayonunda anadan olmuşdur. İlk təhsilini 1956-cı ildə Bakının Bülbülə qəsəbəsindəki 208 saylı orta məktəbdə almış, 12 saylı internat məktəbini bitirmişdir. 1969-cu ildə isə Bakı Energetika Texnikumunun tələbəsi adını qazanmışdı. Hərbi xidmətini Novosibirskdə keçmiş, burada zabitlik kursuna yiyələnmişdir. Raket-artilleriya qoşun hissələrində xidmət etmişdir. Ordudan tərxis olunaraq, Bakı Mayesiz Transformatorlar Zavodunda işləmişdir.

O, 1992-ci ildə yenicə yaradılmış "Qurtuluş" taborunun tərkibinə qatılır. Tərtər, Seysulan, Yarımca,

döyüşlərində iştirak edir. Və az keçmir ki,1992-ci ilin mart ayında tabor komandiri vəzifəsinə irəli çəkilir.

Polkovnik-leytenant Ş.Tağıyev torpaqlarımızın azadlığı uğrunda fədakarlıq göstərənlərdən biri olub. Azərbaycan Respublikası Prezidentinin 23 iyun 1992-ci il tarixli 6 saylı fərmanı ilə Tağıyev Şahin Talıb oğluna Azərbaycanın Milli Qəhrəmanı adı verilmişdir.

Ailəlidi.

Vətən şərəfmizdir deyən Milli Qəhrəmanımız Şahin Tağıyevə Allah ömür versin...

Vətənə borcluyuq biz,
Azərbaycan var olsun.
Vətəndir şərəfimiz
Azərbaycan var olsun.

Mən atəş, qor oğluyam,
Dəmirəm, Koroğluyam.
Şahin Talıb oğluyam.
Azərbaycan var olsun.

Səndən ötrü, ay vətən!-
Axıtdım qanımı mən,
Yox etdim canımı mən,
Azərbaycan var olsun.

03.02.2013

QARAKƏND GÖYLƏRİNDƏ

Azərbaycanın Milli Qəhrəmanı
Fəxrəddin İbrahim oğlu
Şahbazov
(1950 – 1992)

Həyat-fəxarət oldu,
Ölüm-şərafət oldu,
Vətən, şəhidin olmaq
Mənə də qismət oldu.

Fəxrəddin 22 yanvar 1950-ci ildə Bakışəhərində dünyaya göz açıb. 1967-ci ildə 20 saylı orta məktəbi bitirdikdən sonra, Bakı Energetika Texnikumuna daxil olub. 1969-cu ildə hərbi xidmətəçağırılan Fəxrəddin, ordudan tərxis olunduqdan sonra, yarımçıq qalmış təhsilini başa vuraraq, Azərbaycan Teleradio Şirkətindəəmək fəaliyyətinə başlayıb. Uzun müddət operator kimi nöqsansız fəaliyyət göstərib. Tez-tez jurnalistlərlə birlikdə sərhəd bölgələrinə gedən Fəxrəddin qaynar xəbərləri lentin yaddaşına köçürüb tamaşaçıya çatdırırdı.

O, 1990-cı ildə ziyalıların da daxil olduğu qrupla cəbhə bölgəsinə - Xocavənd və Ağdama yollandı. O gün noyabrın 20-si idi. Sən demə, erməni

quldurlarıMİ-8 vertoloyotunu çoxdan gözləyirmiş. Qarakənd səmasında atəşə tutulan vertolyot alovlar içərisində yerəçırpıldı. O gün xalqımızın neçə-neçə dəyərli, ziyalı oğlu namərd gülləsinin qurbanı oldu. F.Şahbazov da onların içərisində idi.

Ailəli idi. İki qızı var.

Azərbaycan Respublikası Prezidentinin 4 dekabr 1992-ci il tarixli 344 saylı fərmanı iləŞahbazov Fəxrəddin İbrahim oğluna, ölümündən sonra, Azərbaycanın Milli Qəhrəmanı adı verildi.

Bakı şəhərinin Şəhidlər Xiyabanında dəfn edilib.

Əcəl quşu can aldı,
Qarakənd göylərində.
Hava birdən qaraldı,
Qarakənd göylərində.

Ağdamdan uçmuş olduq,
Qara günə tuş olduq,
Xainliklə vurulduq
Qarakənd göylərində.

Çox bəladan ötüşdüm,
Dildən dillərə düşdüm.
Şahbazdım, yerə düşdüm
Qarakənd göylərində.

22.01.2012

QAFQAZ İSLAM ORDUSUNUN 90 İLLİYİ MÜNASİBƏTİLƏ...

Nuru Paşanın qardaşı,
Ənvər Paşanın nəvəsi,
Arzu xanımın TRT – 1
Televiziya kanalındakı
çıxışından sonra qələmə aldım
bu qəhrəmanlıq dastanını...

"Qafqaz İslam Ordusuyuq" biz,
Qardaş, Azərbaycanda qalıb izimiz.
Qələmim yazır...
Xəyalın qanadında
Yola çıxdım,
Sevinci itirdim uca dağlarda.
Elə orada daş olub qalasıydım.
Od olub göylərdən yağasıydım.
söyləyin,
axmaya bilərmi
gözlərimin yaşı?
QardaşAzərbaycanda qalıb izi
dalğın xəyalımın,
dövr edir aləmi.
Xəstə könlüm ahu-fəğan eyləyir,
Dil açıb dərdimi bəyan eyləyir.

Ürək gülüşünü boğur əlləriylə,
Türk oğlu Nuru Paşaları
İtirdik o tələtümlü illərdə.
Ax, nələri itirmədik dəli sellərdə,
Çaşbaş düşən xəyallarım nədən desin,
Nədən yazsın axı
Açılır qəlbimin qəm vərəqləri.
Ey Rəbbim,
sənə yalvarıram,
Çəkilsin qələmimdən
Ayazlı-buzlu şaxtalar...
Çağır gəlsin,
Bu meydana
Aşıq Cununu.
Bir "Cəngi" havasıçalsın,
Hürküdüb,
igid dəliləri oyatsın.
Şəhid qəhrəmanların
Ruhunu oxşayıb oxusun.
Nəğmələrdən şeir çələngi toxusun.
Neynim, kimi sürünür,
Kimi yaşayır, kimi bezir.
Dünyanın yükünü çəkməyə
Kimi dözür, kimi azır...
Bakı torpaqları uğrunda
Can verən, qəhrəman,

Türk qardaşlarım,
29 yaşlı Nuru Paşadan
Soraq gözləyən,
Ey türk qardaş-bacılarım,
Məlul-müşgül xiyaban gəzirəm.
Qərib-qərib bu dağlardan ötdülər
deyirəm.
Burda sərin bulaqlardan
əyilib su da içdilər...
Qılınc da oynadıb,
Zəfər dəçaldılar.
Sən, ey əziz, mehriban şəhərim,
Sənə qardaş olub
Qarsım, İstanbulum.
İntiqam duyuram keçmişinizdən.
Keçmişinizi düşünüb xatırladıqca,
Zülmət dünyasını yada saldıqca,
Kin, qəzəb yaranır ötən günlərə.
Kök-köməcli yurdumun igid övladları,
Babalarımız kimi
kökümüzü qoruyaq!
Bir deyək, bir yerdə
qılınc çalaq,
Tanıtmaq üçün
Dünyaya kökümüzü.
Türk qardaşım

Xəyalım hey türk ellərin
dolanar, gəzər
Hər yanım göz oxşayan
mənzərələr.
Zəfər kitabında adın.
Özüm türk, qibləm Quran.
Sən ulusan, oğuz babam.
Əlini ver, dərələr keçim,
bələnlər aşım.
Aç qollarını, dola boynuma
torpağınızı birgə dolaşaq.
İki canda bir ürək
Türk qardaşım...
Birgə coşaq.

Türk qardaşlarıma məktubum
"Türk qardaşım" *şeirim olsun.*

GÜLTƏKİN ZİRVƏSİ

AZƏRBAYCANIN MİLLİ QƏHRƏMANI
Gültəkin Əsgərovaya həsr edilib

(poema)

Özü dağlar zirvəsində,
Gəmisi dəryada qaldı,
Bədəni Şəhidlər Xiyabanında
Başı Aranzəmin dağ zirvəsində...

1992-ci il Naxçıvanlı
istiqamətində
ağır döyüşlərdə...
İgid əsgərlərimizin bir hissəsi
düşmənin atdığı
qranatamyot mərmisinə
tuş gəldilər... Allah, Allah...
Göydən od-alov yağa-yağa
yaralı əsgərlərin
arxasınca qaçan
Banuçiçək kimi
mətin, qürurlu, qeyrətli
Gültəkin
vətən oğullarını

alıb çiyninə
bir, iki, üç...
Gətirir yardım maşınına,
Hospitala yetirmək üçün,
Yaralı qəhrəmanları yaşatmaq üçün...
Bu qəhrəman həkim-
Tibb xidməti zabiti Gültəkin
Dünya boyda döyünən bir ürək.
Görün-
Ürəyin nə boyda tutumu varmış?
Hər əzaba dözən ürək deyilmi?
Bədən tutumunda ürək olarmış?
Dözüm də, tutum da, o, tək deyilmi?

Rəfiqə ananın bala dərdi
dil açıb deyir:-
Bu, nə oxdu, ürəyimə atıldı?
Şuşa, Laçın təki
düyünlənib satıldı.
Diləklər, arzular
Qayalara çırpınıb asıldı...
Ah... həsrət də mənə döz deyir,
Ürəyimdə gəzən bu dərdi,
Kimə, kimə deyim, Allah?
KörpəcəƏminənin anası
Gültəkin şəhid oldu.
Axı onu kim, kim ovuda bilər?
Şəhidlərin ağrısınıçiyninə götürüb,

Əyninə geydi vətən, köynəyini,
Ovcuna götürdü ana torpagı,
Vətən bayrağını ucaltmaq üçün,
Dan yerini gecəninn qaranlığından alıb
sabahı açmaq üçün... ax...of...
Necə kəsim
Şah damarımı mən?
axan qan Vətənimdir,
Vətənimdir, Vətənim.

Şəhidlik zirvəsi-
Vətən sevgisinin zirvəsi-
Gültəkin zirvəsi oldu.

Bir ümid var, solan deyil,
Düşmən zəfər çalan deyil,
And içirik qəbrinizə,
Şəhid unudulan deyil.

Ah...
Vətən oğullarımız, qızlarımız
qana dönüb
yaddaşlara yazılır,
sapa, sözə, misralara düzülüb
tarixə, yaddaşlara yazılır.
Ürəklərdən od-alov süzülür,
Qəm-dərddən, onların
Ürəyi vərəm bağlayıb, üzülür.

Rəfiqə ana yenə
sinə dolusu ah çəkir...
Elə bil ki, buxarlanıb qalxır göyə,
Sonra buluda çökür,
Gilələnib-gilələnib
buludun gözündən tökülür...
And içib deyir:
-balamın səsini bir də eşitsəm,
Əzrayıla can vermərəm, inan.
Çox əfsuslar
Ayrılıq qara xətt çəkdi,
Sevgi bağına...
Saraldı yarpaqlar,
    töküldü bir-bir,
indi şəhiddir-dindi meşələr...
Göydən qrad-dəmir
Yağışlar yağdı...
Təbiət dəyişdi
gözümdə, keçdi.
Çöl-çəmənə matəm sükutu düşdü.
Onun çələng hördüyü
gül-çiçəklər də
solar, açılmaz bir də.

Hey ağlaram gözümdə sən,
dərd, kədər, ələm...
Gültəkin zirvəsində
göz yaşlarım bir Vətən,
bir şəhid bağı yaradaq
deyirəm bəlkə?!

Həsrəti dil açıb...
Qəlbim yanır,
olur bala möhtacı.
Sızıltıdan gözlərim
yaş axıdır acı-acı.
Yaramın yox əlacı.

İnildəyir könlümün simli telləri
Bağımın solur açan gülləri,
Məni özüylə aparır qəm yelləri.
Divanə kimi özümdən qaçar oluram.
Cismim yanır, ruhuma dərd ələnir,
Qara saçım qara ilməyə bələnir,
Qaynar qanım misralara çilənir.

Ana deyir: -Dərd əlindən əyildim,
Ya Rəbbim, mən ki, belə deyildim.
Xəzan kimi küləklərə döyüldüm.
Bəlkə balamı mələklər göyəçəkmiş?..
Gecələr şahı, ay inildəmiş...
Saçını yolub hönkürüb, ağlamış...

buludlar... ağlamış...
yağışlar sellənib bağıma dolmuş...
Əzrayıl qapıma gəlmiş,
Xəbərdən xəbərim yox mənim,
hey dilə tuturam dərdimi.
Amandır, Allahım,
halım yamandır.
Mənim qəlbim,
Ananın isə könlü yara...
Qoymayın, qoymayın,
Novruzla Rahilin
şəhidləşmiş səsləri
dağlarda...
əks-səda, səsi gəlir....
"Gültəkin", "Gültəkin" deyir.
Sənsiz xarı bülbülün səsi
tutub aləmi.
Çatdın şəhidlik zirvəsinə
Qarabağda sən.
Qartaltək qıy vurdun
uca zirvədə,
qovuşdun əbədiyyətə sən.
Dağ zirvəsində bitdin gül təkin!
Qarabağın Xarı bülbülü - Gültəkin.
Bu şairin əlində qələm
hönkürüb, ağlar.

Gözlərində şəhidləri,
yanağında qanlı yaş...
Ağzında –
hey dili titrəyər, ağlar.

Vətənin öyünməyə haqqı-
Burla Xatunu var,
Həcəri, Nigarı var,
Salatını, Qarateli, Gültəkini var...
Ey tez açıb, tez solanlar, sizə
dastanlar qoşarlar,
ürəklərdə daim yaşarlar...
Ey vətənin qəhrəmanları,
Gənclər sizdən alacaq vətən dərsini,
Sizin qanınız alınmasa,
Güləmailin gözləri daim olar nəm.
Çəkər gecə-gündüz ah.
Ey Şəhidlərim ... Şəhidlərim...
Allah rəhmət eləsin sizlərə!
Qanınız yerdə qalmaz
İnşallah!

ŞƏHİD YAŞINDA

HACIMAHMUDOVA QARATELİN 65 İLLİYİNƏ...

(poema)

Qaratel Hacımahmudova...

Qazax rayonunun Əskipara kəndindən boy qaldıran cəsur qadın, əlinə silah alaraq könüllü ön cəbhəyə - Vətənimizin ən qaynar nöqtəsinə gedən qorxmaz döyüşçü... O qadın-döyüşçü ki, düşmənin əlinə keçməsin deyə, sön gülləsini Vətən üçün döyünən ürəyinə sıxdı. Ölümündən sonra bu qəhrəman döyüşçü "Azərbaycan Bayrağı" ordeni ilə təltif edildi. Bununla da, Azərbaycanın qəhrəman qadınlarının sırasına bir nəfər dəəlavə olundu – Qaratel Hacımahmudova...

PROLOQ

Könül – dərd oylağı,
Qəmin
  ağrının
    acının
məskən saldığı karvansaray...
Dərdin yükü çox ağır,

aləm də qaranlıq...
Ömür adlı rüzgarın
qorxunc dağlarından
Çıxa bilmir fikir və düşüncəm.
Bu, alın yazısımı?
Bəxt məni tanımır...

Bir gözü ağlayır,
bir gözü gülür
qələmimin də...
Hey anasız körpə kimi
Hönkürür –
Axı mənim qəhrəmanımın
Qaratelimin – anası var,
içilməmiş piyaləsi var,
biçilməmiş talası,
açılmamış lalası var.
Bu alın yazısımı?
Bəxt məni tanımır...

Anasızlıq fəryadına ayılanlar,
laylaları qəm bayatısı,
Kədər hıçqırtısı sayılanlar
Ana adına möhtac,
Ana qayğısına təşnələrdir.
Bəxt tanıdı, tanımadı.
Həyat onlara acı dadır...
Gecələri laylasız qalan uşaq,

Bəxti göz yaşında,
Qəm sızıltısında yüyürən uşaq,
Köksü qəlpə-qəlpə oyulan uşaq da
yana-yana deyir:
Bəxt məni tanımır...

Nənə görəndə “can” deyər,
Ömrünü ona qurban deyər.
Sevər, sevər, əzizləyər,
Tanrıdan payımsan deyər,
Günəşim, Ayımsan deyər,
Amma Tanrımsan deməz...

Dünyanın sirrini,
dövranın gərdişini,
körpənin göz yaşı deyəcək.
Anasızlıq acısı çəkən uşağın
anasızlıq ağrısını
elə körpənin uşaq
yaddaşı deyəcək.
Bu, alın yazısımı?

Anlar un kimi tökülür
dərdimin ətəyindən.
Dərdim sanki xəlbirdir –
içindən omür adlı
həyat eşqi tökülür.
Anasızlıq halını ödəmir

Xəstəhal dərdlərim.
Bu da bir bəxt yazısıdı.
Könlün verdiyi fərman acizdi,
Alın yazısı, bəxt, Tanrı işi...
Gümana qalmış səbir də
sarsılmır nədənsə...

Yolları örkən kimi
yığdım əllərimə.
Sallanıb kəndir gecədən
Yanınıza enirəm,
Ehey, şəhidlərim!
Ər oğlu, ərənlərim!
Açılan al səhərlər
qəmli axşamlar
qucaqlayır qəbir daşınızı.
Sanki keşik çəkir
Yorğun gecələr, sizə...
Soyuq küləklər tez-tez
layla çalır başınızın üstündə.

...Qəhrəman qadın,
Qorxmaz döyüşçü, Qaratel,
Böyük bir oba Qazaxda –
sənə yas tutur el.
Qurulmayan toy – büsatına
giley-güzar edir
çatlamış dodaqlar.

Əl-ayağına xına yaxılmadı.
Hər fəsil dəyişəndə
baş daşını qucaqlayıb
tapdaq, əsir torpaqlara
baxırsan yana-yana.
Sən şəhid yaşında
Şəhid el qızısan.
Ömrünü vətənə verib,
daş qədər yaşaya bilməyən insan,
Yoxluğuna dözmür ürək.
Sinənə sıxdığın güllə
sənin ismət, namus ucalığındı.
Bəxt səndən qaçar oldu.
arzuların dərd əlində
naçar oldu.
Elin şəhid, uca qızı
Həm cavan, həm qoca qızı,
Ey Əskipara kəndinin qəhrəman qızı.

Bir yol gedirəm,
Bu yol mənim bələdçim.
Çınqıl sinəsinə
ayaq basa-basa
Gedirəm Əskipara kəndinə-
Qəhrəman, cəsur
Qaratelin kəndinə.
Sanki işimdə köz var.

Şəhid ağrıları
beynimdən ötür qatar-qatar
durna köçü kimi.
Könül tələtümdə,
Ağ-qırçın ləpələr
Sərt sahili döyür...
Mənim halıma bax, Allah.
Meşələr də sanki ağı deyir.
Hündür ağaclar sanki
saçlarını yolub,
tökür terə.
Yolları örtüb ağacların ahları...
Ürək bu yerdə:
Şair, yaz, deyir.
Yaz, qoy vərəq-vərəq
hopsun qəlbinə misralar.
Mən qışa sakin adam.
Yazsam bir dastan olar,
taleyini, Qaratel.
Od tutub yanar içim.
İçim kül olar,
dağılar ətrafa.
Könül sarayımda yellər əsər,
bacım Qaratel.
Həsrətin yaz yağışıtək
Tökülür gen çöllərə.
Mənim ünvanım – Vətən,

Sənin əbədiyyət andın – Vətən.
Vətən ağlayır səni.
Sənə ağı deyir Vətən.
Mənim ünvanım – Vətən,
Əynimdə donum kətan.
Ah çəkir anan, atan,
Ağlama, bacım...

El üçün oda yandın,
Hicran sıxdı, talandın.
Başım üstə dolandın,
Ağlama, bacım....

Mən torpaq üstə daşam,
Gözdən tökülən yaşam.
Sanma hamıdan başam,
Ağlama, bacım...

Bir çırağam, yanmaram,
Sazaq düşər, donmaram.
Səni ruhsuz sanmaram,
Ağlama, bacım...

Vətən qolum üstədi,
Yolu yolum üstədi.
Ruhun bir şikəstədi,
Ağlama, bacım...

Mən Aveydə qonağam,
Sanki sinəli dağam.
Sənincün xoşbəxt çağam,
Ağlama, bacım...
Mən daş olum,
sən çiçək
Səngərdə birgə bitək.
Torpaq düşmən əlində,
Mən yel olum,
Sən külək.

Xatirən dil açır, bax,
Qəmdən alışır dodaq.
Əsir düşübdü torpaq,
Oyan, şəhidim, oyan.

Avey ucalığımdır,
Xatirələr dağımdır.
Mənim yanmaq çağımdır,
Oyan, şəhidim, oyan.

Sən hardasan bacım, hey?
Sənə işıq saçım, hey.
Sənə "gəl" deyir Avey,
Oyan, şəhidim, oyan.

Bu şəhidlik dastanımın
Baş obrazı sənsən, bacım.

Kipriklərin sərhəd divarım.
Yer yanır, yurd yanır, tez gəl.
Ey yurdumun qəhrəman qızı,
Səninlə gülüb, ağlamaq istəyir
Bu qəlb, bu qələm...
Şair!- götür qələmi,
Car eylə bu naləmi.
Qəhrəman, igid, məğrur
Ana-bacılardan yaz.
Qeyrətilə hamıdan baş,
sevgisi torpaq,
Olanlardan yaz.
Bax, bu ömrü yarımçıqlardan yaz.
Vətənlə yaşayıb,
Vətənlə yananlardan yaz.
Yaz,
bir qəhrəmanlıq dastanı yaz.

Daha mən geri dönən deyiləm,
Mələklər kimi göydən enən deyiləm.
Külək ha deyiləm bir dəəsəm.
Torpağım düşmən əlində
Yağıların nəfəsin kəsəm...
Vətəni götürdüm qolum üstə,
Qəm əkdilər yolum üstə.
Eyy, Vətən yolunda şəhid olanlar,
Ölümündən sonra
ucalıb yaşayanlar,

Göyəzən, Avey dağı sizsiz.
Beli bükülüb, qocalıb,
O nazlı mələk –
Damcılı bulağı.
Məkanı Aveyin sal daşı.
O da ağlayıb durulub.
Avey bir sevgi yaddaşı.
Sən, ey məğrur qadın,
Qəhrəmanlıq tacım,
Ruhuma yeni bir əsər,
qələmimə sözlü-sazlı
bir dastan gətirdin.
Ürəkdə var həsrətin
yüz dağı
Sənin həsrətin olsun –
söz dağı
Bu həsrət yolları –
Olar gözlərimə Duz dağı
Ay gedib qayıtmayanım,
Neyniyim –
Yolları yığ əllərimə
yol daşın olum.
Deyirəm bu yolda
yoldaşın olum.
Ay gedib qayıtmayanım,
Qaratelim, məğrur bacım.
Qəhrəmanlara bacı,
güllərin tacı.

Ayazlı – şaxtalı
Yağmurlu, yağışlı,
Dağlı-aranlı, yer-göy
dağ göyərçinim.
Getdiyin bu müqəddəs yol,
Gözlərimdə bənzərsiz –
ağ göyərçinim.
Ay gedib qayıtmayanım
Qəhrəman Qaratel bacım
Düşüb kürəyimə
bu dünyanın həsrət yükü.
Sən qopardın sinəm üstən
həsrətini bu dünyanın.
Indi qalmışam arasında
o dünyanın...
bu dünyanın...

Sağ çöl, sol çöl
arxa çöl
baxıram hər tərəf çöl...
ucsuz-bucaqsız çöllər
şəhidlərin qanı ilə, lalələr al qırmızı
Bu qırmızı qandan yaranma
qanlı göl.
Vuruşduqca bizim qızlar,
Qanlı ər meydanında,
Mən özümü sanıram
O şəhidlər gölündə.

Sanıram ki, mən də ordayam,
O qan damarından axır.
Onun qanı ilə birgə
Mənim qanım da axır.
Yayıldı aləmə bu xəbər,
Quşlar da dil açmışdı.
Hər yanda oxuyurdu
Aləmə şəhid zümzüməsi.

Xalqımızın qəhrəman qızı,
Gözlərdən axan yaş ağıdır,
Düşmənlər bizə yağıdır.

Qan içində şəhidimin laləsi
Çox çətin
könlüm indən belə güləsi.
Anaların harayı
  fəryadı
    naləsi Qaratel...

Ey, qatarlaşıb gedən durnalar,
Bir həsrət alışır dərdli sinəmdə.
Qazaxdan keçib gedəndə
Əskipara kəndinin üstündən
keçəndə,
bir lələk atın yerə,
Qəhrəman Qaratelimə.
Nə olar... nə olar... Qaratelin,

məzar daşına bir lələk taxın.
Ürək ağrısı ilə
Susdu qələm
Bu xəbərlə
dad çəkdi
bütün aləm!
əs, əs, ey külək!
Dünyanı gəz.
Sən Allah bircə
uğultunu kəs.
Yatan o qəhrəman,
Ana yurdumun
Məğrur qız Qarateldi
Oyanmasın.
O, vətən çiçəyi,
Ağ göyərçinim.
Şərəflə döyüşdü
Vətənin göylərində
Qanad çalaraq
Gedirdi
əbədi
əbədiyyətə.
Içimdəki
Bu haray... bu səs...
ağrıdırdı məni.
Duyurdum yenə
qan qoxusu.
Gəldi dünyaya

Burla xatun.
Gültəkin kimi
Getdi dünyadan.
O, yurd yeri,
yurd daşı
Vətən üçün
şəhid oldu.
Şəhid olanda
o qəhrəman qız,
Bir də doğuldu.
Hər igid ömrü
enişli-yoxuşlu
Keçdiyim bu yollar...
Ulu yollar
Şanlı millətimin
Odlar diyarı
övladlarıyıq.
And içərdi,
Şəhidlərin qəbrinə.
Indi isə şəhidlərlə
yanaşı ötəcək
aylar
illər.
Ey Qazax mahalının
Qəhrəman qızı,
Azərbaycanımızın ulduzu,
Örnək olacaqsan
gələcək nəsillərə.

Onlar da sənin
şəhid qəbrinə
and içəcəklər...
Qaratel, bacım mənim!
Telin qapqara idi,
Qaratel bacım mənim.
Üzün aypara idi,
Qaratel bacım mənim.

Telin gecədən qara,
Sən hara, ağ tel hara?
Düşünmürdün ağara
Qaratel, bacım mənim.

Duzun, çörəyin vardı,
Arzun, diləyin vardı,
Cəsur urəyin vardı,
Qaratel, bacım mənim.

Üstünə bəla gəldi,
Qonşudan xəta gəldi.
Elinə cəfa gəldi,
Qaratel, bacım mənim.

Bahar - ömründə qışdı,
İllər -yaşında xışdı,
Telin ağarmamışdı,
Qaratel, bacım mənim.

İl oldu zildən qara,
İl oldu ildən qara.
Gün oldu teldən qara,
Qaratel, bacım mənim.
Bəd günlərin bir günü,
Qara görün gününü,
Səslədi ölümünü,
Qaratel, bacım mənim

Kaş ki, ağ tel olaydın,
Anamtək qocalaydın...
Cavan canına qıydın,
Qaratel, bacım mənim.

Bilmirəm bu naməni
Kimə yazım?
Çaş-baş düşüb ilim-ayım.
İşim o olub ki,
dərdləri sayım...
Qazax mahalında
Avey dağında
qonağam.
O, məğrur qadın
Qarateli soraqlaram
Bu yurdun meşələrin ağacları
saçını yolar.
Dağları, daşları, yolları
dil açıb danışır.

-Mən daş olum,
Sən çiçək,
Səngərdə bir bitək.
Son güllən
Sinənə sipər olmadı,
O güllləllərdə gül olmadı.
Axı güllə-güllə başlayır
Qızılgül-sevgi gülü.
Sən ey güllərin acı Qaratelim,
Qazaxın məğrur qızı
Sinən oldu son güllənin məskəni.
Qarateldə tel var idi,
Bəs gül
niyə telə yox,
Ox olub sinəsinə
taxıldı.
O, yıxılmadı,
Dayağı Vətən,
ayağı Vətən
O məğrur qızın.
Sinəsi alqırmızı qərənfil
gül dəstəsi,
Qəbri üstə töküldü
Vətən torpağı
Üstünə gəldi
Avey dağı...

YUXUMDAN İTKİN DÜŞÜB

Azərbaycanın Milli Qəhrəmanı
Şahlar Əvəz oğlu Şükürov
(1952 – 1990)

Fəsillərin ən gözəli olan yaz ayında - mayın 17-də-1952-ci ildə-cənnət diyarımız Kəlbəcərin Zülfüqarlı kəndində dünyaya göz açdı Şahlar Əvəz oğlu. Qəhrəmanmızın kəlbəcərli olduğunu bildikdə poeziyamızın sönməz günəşi, xalq şairi Səməd Vurğunla aşıqların ustadı Aşıq Şəmşirin "Yada sal məni" deyişmələrini xatırladım.. Xatırlamanın özü də bir həyatdı...

O, şeiri yazmasam olmaz... Qoy onların da ruhları şad olsun...

S.Vurğun:

Aşıq Şəmşir, Dəlidağdan keçəndə
Kəklikli daşlardan xəbər al məni.
Ceyran bulağından qızlar içəndə
Saz tutub, söz qoşub yada sal məni.

Aşıq Şəmşir:

Qoşqarla yanaşı duran başın var
Bizim el tanıyır uca dağ səni.
Yanır yolumuzda sənət çırağın,
Bilirik şeirdə bir mayak səni.

S.Vurğun:

Bəxt məni bu yerə qonaq göndərdi
Gedirəm, yamandır ayrılıq dərdi.
Demə Səməd Vurğun gəldi - gedərdi
Unutmaz bu oba, bu mahal məni.

Aşıq Şəmşir:

Şəmşirlə görüşün qaldı yadigar
Unutmaz bu qədər canında can var.
Səndən dərs almağa diyarbədiyar
Gəzirəm əlimdə şam-çıraq səni.

Ey şair, aşıq qardaş – mən dəəlimdə qələm, könlümdə siz, dilimdə söz yolları çıraqla, dağları isə çiskinlə, dumanla gəzirəm...

Mənimlə bir yerdə, yəni "Neftqaz Quyularının Qazılması və istisimarı" şöbəsində işləyən qəhrəmanımızın bacısı qızı Sevinc Məmməd qızının diqqəti məndə imiş, özümdən xəbərsiz. Bir gün o:

- Sizi həmişə duyğulu görürəm, elə bil xəyal gəmisində üzürsünüz. Elə bil əlçatmaz göylərlə danışırsız. Nədir axı sizi bu qədər məşğul edən?

- Mənim qəlbimin çırpıntıları dəniz sularını lərzəyə gətirər, fırtınaya döndər. Çünki Vətən adlı torpağın sızlayan yarasını ruhuma köçürmüşəm. Torpağımız azad olanda tələtümlu qəlbim rahatlıq tapacaq - qızım, dedim:

-Oy... oy... yenə şair qəlbiniz tələtümdədir dedi:

-Hə qızım, ilham pərim dəniz sularına baş vurub, göydə, səmada bulud karvanı yaradır... Bu karvan şəhidlərmizdir...

Bu an Sevinc xanım göz yaşlarını saxlaya bilmədi, hıçqırtısı vücudumu silkələdi.

Alovlu könlüm yenidən közərdi, deyəsən, indi də sən bir qara bulud oldun dedim.

– Həə... gözəl şairmiz, mənim də dayım Şahlar Şükürov 38 yaşında şəhidliyə ucaldı Azərbaycanmızın ilk Milli Qəhrəmanlarından oldu. Nənəm Balış xanım və anam o gündən evin bir guşəsini özlərinə zindan ediblər. Balış nənəm deyir ki, Şahlar daha yuxuma gəlmir, itib yuxumdan, ruhuma hopub, mən də oğlum Şahlarla bərabər göylərə çəkilmişəm. Bu sözlər dəniz sularını tələtümə gətirən küləklər, qasırğalar kimi düşüncələrimi tarıma çəkdi. Heç bir dayanacağı olmayan qəm karvanıma Şahları da götürdüm. Sevinc xanım da bu yolda mənə yardımçı oldu.

...İlk növbədə Şahların anası Balış xanımla görüşüb hal-əhval tutmaq istədim. Amma səhhəti bu görüşə imkan vermədi.

Kəlbəcərin Zülfüqarlı kəndində böyüyüb başa çatmış Şahlar kənd məktəbini dəəla qiymətlərlə başa vurmuşdu. O, öz istedadı və bacarığı ilə Zülfüqarlı kənd müəllimlərinin və sinif yoldaşlarının sevimlisinə çevrilmişdi. O, həm də idmanın hər növünə yiyələnmişdi, onun hobbisi Zülfüqarlı kəndindən axan Tutqu çayında balıq tutmaq idi. O, uşaqlıqdan çox səxavətli idi, tutduğu balıqları məhəllə uşaqlarına verib onları sevindirərdi.

Zülfüqarlı kənd orta məktəbini əla qiymətlərlə başa vuran Şahlar, həmin ildə Azərbaycan Xalq Təssərrüfatı İnstitutuna daxil oldu və təhsil ocağını 1972-ci ildəəla qiymətlərlə başa vurdu.

İnstitutu qurtardıqdan sonra ordu sıralarında xidməti borcunu yerinə yetirdi. Xalq Təssərrüfatı İnstitutu ilə kifayətlənməyən gənc Şahlar hərbi xidmətdən qayıdandan sonra Rostov Milis Akademiyasında ikinci təhsil aldı.

1986-cı ildə Akademiyanı yüksək qiymətlərlə başa vuran Şahlar əmək fəaliyyətinə Ucar rayonunda başladı. Rayon Milis Şöbəsindəəməliyyat rəisi vəzifəsini icra elədi. Hətta belə gənc yaşlarında mayor rütbəsinə layiq görüldü. Sonra Zərdab rayon milis şöbəsinə rəis müavini təyin olundu. Başqa rayonlarda işləməsinə baxmayaraq, məzuniyyət zamanı doğma kəndinə gələndə xəstə və yaşlılara baş çəkərdi. Əlsiz - ayaqsıza əl tutar, onların qayğısına qalardı. Hamının sevimlisinə çevrilən Şahlar,

gənc bir polis kimi Aran Qarabağda Kəlbəcərin adını yüksəltmiş, elinə, obasına şərəf gətirmişdi. Ən ağır əməliyyat işlərində onun savadından, qorxmazlığından, dönməzliyindən, cəsurluğundan çoxları bəhrələnmiş və o, hər kəsə örnək olmuşdur.

Hər an iş yoldaşları Şahların cəsurluğundan ağız dolusu danışıb deyirlər ki, o, gələcək nəsillərəəsil örnək olası bir qəhrəmandı.

Artıq 1988-ci ildən Azərbaycanın rahatlığı pozulmuşdu. Düşmən əhatəsində qalan Kəlbəcərin yollarında hər gün neçə-neçə insan vəhşicəsinəöldürülür, itkin düşür, ağır yaralanırdı. Kəlbəcərin bu vəziyyəti Şahlara rahatlıq vermirdi. O, Zərdab rayonunda polis şöbəsində işləməyinə baxmayaraq, dəfələrlə raport yazaraq, cəbhə bölgəsinə getmək istədiyini bildirmişdi. Rəhbərlik də onun təkrar xahişini nəzərə alaraq, döyüş bölgələrinə getməsinə razılıq verdi. Şahlar qorxmazlığın, qeyrətin, ölməzliyin qəhrəmanı oldu. Bu, belə də olmalı idi, Vətən üçün şəhid olmaq, cəsur ürək sahibi olmaq deməkdir.

Xalq 1990-cı ilin qanlı yanvarından çıxsa da, hər gün Azərbaycanın sərhəd kəndlərindən qara xəbərlər gəlməkdə idi. Kəlbəcərlilər isə Tərtərdən 159 km-lik yolu rus əsgərlərinin müşayiəti ilə, karvanla gedib-gəlirdilər. Ruslar azərbaycanlı sürücülərin maşınında ağac və dəmirdən hazırlanmış hər hansı bir alətin olmasına imkan vermədiyi halda, ermənilər yol boyu pusqu qurur, imkan tapdıqca karvanı

gülləbaran edir, əhalini qırırdılar. Kərəmlidəki insanlara kömək üçün 11 iyun 1990-cı ildəərzaq karvanı ilə döyüş bölgəsinə gələn Şahlar "Otaq qaya" deyilən dar keçiddə quldurların pusqusuna düşdü. Camaatın silahsız olduğunu bilən cəsur Şahlar, tam silahlanmış düşmənlə döyüşməli oldu.

Bir cəsur türk oğlu olduğunu sübut etdi.

Yurduma gör kimdir göz dikən,
Əyilmə türk oğlu, sən dikəl!
Dənizlər götürməz heç ləkə
Əyilmə, türk oğlu, sən dikəl!

Bu duyğu və bu hislərlə yaşayan Vətən oğlu ancaq belə edərdi, Şahlar da belə etdi. Və nəhayət, məharətlə, fədakarlıqla, canı bahasına karvanı döyüş bölgəsindən çıxara bildi. Əfsuslar olsun ki, elinin-obasının yükünü çəkən, dəfələrlə ölümdən qurtaran Şahlar özünü xilas edə bilməli. Doğrudan da o, özünü yox, böyük bir avtomobil karvanında olan insanları düşünərək qəhrəman, cəsur, igid bir əsgər kimi döyüşdü.

Son nəfəsdə qollarım bağlıdı,
Anamın, atamın sinəsi dağlıdı,
Bu da bir Koroğlu nağılıdı
Vətənim Kəlbəcərim salamat qal.

Vətən, el-oba üçün ölümün gözünə dik baxa-baxa gələcək nəsillərə örnək olacaq qəhrəmanlıq dastanı qoyub getdi.

O, getməyib, sadəcə yuxulardan itib, göylərə hopub...

İndi o karvandan sağ qalanlar da Şahların igidliyini xatırlayıb fəxrlə danışırlar.

1990-cı il 11 iyun. Günəşin qüruba enən bir vaxtında, qara buludlar da Şahlara tərəf yaxınlaşırdı.

Döyüş belə başladı: erməni quldurları əvvəlcədən avtomobil karvanının keçəcəyi yolu dağıdıcı zərbəyə malik tratillə minalayaraq, yüksəklikdə karvanın gəlməsini gözləyirlər. Həmin yüksəklikdə pusqu elə qurulmuşdu ki, buradan kimsənin sağ çıxması bir möcüzə olardı. Amma qəhrəman oğlumuz Şahlar qanı ilə yüzlərlə kəlbəcərlini bu pusqudan qurtara bildi, özü isə şəhidlik zirvəsinə ucaldı. Azərbaycanın ilk Milli Qəhramanlarından biri Şahlar Əvəz oğlu qan içində, yaralı olduğu halda belə tratili zərərsizləşdirərək ağır nəticələr verəcək partlayışın qarşısını almış, karvanı xilas edə bilmişdi. Karvandan sağ qalanlar deyir ki, belə vəziyyətləri yalnız filmlərdə görmək mümkün idi.

Qara xəbər tez yayılır, deyirlər. Xəbər bütün Azərbaycana yayıldı. Şahlar Əvəz oğlunu tanıyanlar

onunla son dəfə vidalaşmağa gəldilər. Onu son mənzilə yola saldılar.

Təəssüf ki, Şahların doğulub boya-başa çatdığı Zülfüqarlı kəndi hələ də düşmən əlindədir. Dünyaya yaz fəslində göz açan Şahlar, baharda da sevdiyi Zülfüqarlı kəndinin torpağına döndü...

Deyirlər, atası Əvəz kişi, Kəlbəcərdən camaat çıxanda oğlu Şahların qəbrinə sığınıb ki, bura mənim səngərimdi, mən bu doğma Zülfüqarlı kəndindən heç yana getməyəcəyəm" - deyə israr eyləyib. Onu da deyib ki, torpağı atıb getmək kişiliyə sığışan iş deyil...

Ah, atalar... atalar... neynim indi mən fağır...

Oğul qapısının
Açarı itmiş.
Atanın dərdi danışır-
dərmanı dərd yazan fələk,
Ürək qan içində,
Ürək ağlayır.
Göz yaşı
duz təki
yandırır – yaxır.
Ruhu canımda yara bağlayır.
Deyirəm
nə olaydı
durub gələydi,
gülə-gülə qapıdan girəydi.

Axan göz yaşımı,
əlləri ilə siləydi.
Axı qurğuşun yüklü bir qataram.
Ah-uf...
qüssə-kədər hər an içimdə böyüyür...
Neynəyim ki, dərd yükünü
qoymağa yer axtarıram
tapa bilmirəm...
Uca dağlarına sığına bilmirəm Vətən!
Günəşinə isinə bilmirəm...
Üşüyürəm... üşüyürəm.

Soyuğunda üşüdüyüm, zirvəsində donduğum, çənində itdiyim dağları unutmaqmı olar?!

Ah, bu dərd yüküm
Göyəzəndən ağır,
Sevgi ilə dolu, saray evim,
Qəmə-kədərə oylaq oldu.

Şahlar elin sevimlisi olduğu kimi ailənin də sevimlisi idi. O, Allahın göndərdiyi ən gözəl pay idi. Onun sevgi payına da gözəl bir xanım düşmüdü. Əslən, Laçından olan Elmira xanımla ailə qurmuşdu. Bu, o Elmira xanımdır ki, həm gəlin köçdüyü Kəlbəcərini, həm də Laçınını, Ağdamını itirmişdir.

Bir oğlu, bir qızı var.

Elmira xanım hal-hazırda Nərimanov rayonundakı 47 saylı orta məktəbdə (kimya) müəllimlik edir. Oğlu Sənan Nəsimi rayonunda polis mayorudu, tədqiqatçı işləyir. Qızı isə Xarici Dillər Universitetində ingilis dili müəlliməsidir.

Evin bir guşəsini özünə zindan edən Şahların anası Balış xanım deyir ki, mən o vaxt bayıra çıxacam ki, Kəlbəcəri geri almış olaq... Onda Kəlbəcərə gedəcəm... Üzünü Kəlbəcər dağlarına tutan ana... neynim axı mən... mən fağır...

ay dağlar!..

Sizlərə olsun salam.
Nə vaxtdır qapını aça bilmirəm...
balam... balam!!!
Neynim?
Dərdim ayağını yerə döyüb...
Əzrayıl kimi sinəmə çöküb
Yazdıran...
Könül sarayım dərd-qəm oylağı,
Yüküm çox ağır, çəkə bilmirəm, balam!
balam!
Ey balamın uyudugu dağ!
ey dağlar! ey dağlar!
Ay batar bulud ağlar
Balası ölən analar, sinə vurar,
sinə dağlar
Nə yatar, nə dincələr,

nə gecəsi, nə gündüzü
Ah... yaylağına çıxa bilmirəm,
Məni bağışla dağlar!
Nə də yalından aşıb
sinəndə yata bilmirəm.

Çəkilməz dərdi çəkib ah eyləyən,
Dərdlə dost olub fəğan eyləyən,
Yuxuma gələn Şahlar balam da
Yuxumdan itkin düşüb dağlar!..

Şahlar Əvəz oğlu Şükürov döyüşlərdə göstərdiyi igidliyə görə ölkə prezidenti Əbülfəz Elçibəyin 264 saylı fərmanı ilə 8 oktyabr 1992-ci ildə Azərbaycanın Milli Qəhrəmanı adına layiq görüldü.

Allah rəhmət eləsin, məzarı nurla dolsun.

10.11.2013

QƏHRƏMANLIQ DƏRSİ

AZƏRBAYCANIN MİLLİ QƏHRƏMANI, SƏRHƏDÇİƏSGƏR, BAŞ LEYTENANT Məmmədov Eldar Harun oğlunun xatirəsinə... (1968-1993)

(hekayə)

Tabut gətirmişdilər Ağdərədən Bakıya - Hüsü Hacıyev küçəsinə. Bütün küçə yığılmışdı Harun kişinin qapısına.Azərbaycanbayrağına bükülmüşdü tabut.

Öz ayağı ilə getdi, çiyinlərdə gəldi Eldar. Əlində bayraq getmişdi, qayıdanda tabutu həmin bayrağa bükülüb gəldi. Sanki Eldarı tabutdan oyadacaqlar, ən çox da anası buna inanırdı. Eldarı çağırırdı, yana-yana çağırırdı. Elə bil həyətdən çağırırdı onu, Eldar eşitmirdi, sanki həyətdə futbol oynayırdı, özü də qapıçıydı. Çağırana bu zaman hay vermək lazım deyildi. Rəqiblər qapıya top vura bilərdilər. Dabanları üstə qalxmışdı Eldar. Həmişə qapıçı dayanırdı oyunda. Hələ rəqiblər onun qapısından top keçirə bilməmişdilər. Oxuduğu 189 saylı məktəbdə onunla fəxr edirdilər.

Tabutu hələ yerə qoymamışdılar. Adamlar Eldarın yanına qalxmaq istəyirdi. Eldarın yanına qalxmaq

olmazdı. Ona görə də tabutu yerə qoydular. Anası üzünü tabuta söykədi. İndi lap möhkəm çağırırdı. Cavab vermədi Eldar. Qonşular da çağırırdı. Cavab yoxuydu. Sinif yoldaşları çağırdı, dostları çağırdı. Axırda bir qız da çağırdı, ürəyində çağırdı, heç kəs eşitmədi. Təkcə tabutun üstünə sərilmiş bayrağın bir tərəfi yelləndi, bir az gülümsədi, yəni dedi ki, arxayın olun, burdayam, futbol oynayıram, qapıçıyam, bir saata gəlirəm. Bu cavabı heç kim eşitmədi qızdan başqa.

Anasının ürəyi getdi, elə bil Eldarın dalınca getdi, amma boş qayıtdı. Heç yerdə yox idi Eldar. Ona görə ana bayatı ilə çağırdı Eldarı:

Əzizinəm ağ dərə,
Başı duman, dağ, dərə,
Eldarım səndədirsə,
Yaxşı saxla, Ağdərə!

Yenə ananın ürəyi getdi... Eldar, Eldar...

Eldar şeiri də eşitmədi. Yox, heç nəyi eşitməzdi. Nə də qayıdıb gəlməzdi. Onu anasından qabaq çağırmışdılar. O da getmişdi.

Orta məktəbdə oxuyanda sərhəd görməmişdi Eldar. Müəllimlərdən eşitmişdi Göyçə sərhədini, Zəngəzur dərdini, Dərbənd nisgilini. Xəritəyə baxanda kövrəlirdi. Araya çəkilmiş sərhədlər onun ürəyini dəlib keçirdi. Dağ-dağ idi vətənin sinəsi. Qara yanvar

onun yumruğunu düyünləmişdi. Bədən tərbiyəsi dərsi yerişini böyütmüşdü Eldarın, qəddini düzəltmişdi. Bu yumruq kiməsə toxunsaydı, bu yeriş harasa getsəydi, bu qədd harasa baxsaydı... bunlar olmasaydı, yaşaya bilməyəcəkdi...

"Haradan başlanır Vətən?" inşasında ilk cümləsi belə idi: "Vətən sərhəddən başlanır". Niyə yazmışdı belə, özü də bilmirdi... təkcəədəbiyyat müəllimi Xanım müəllimə yadında saxlamışdı bunu. Sonradan Eldarın tabutunun üstündə deyəcəkdi bu cümləni. Xanım müəllimə tabutun başında nitq söyləyirdi:

-Eldar nümunəvi şagird idi. O, çoxsaylı şagird və müəllim kollektivinin dərin hörmətini qazanmışdı...

Xanım müəllimə həmişə belə danışırdı. Sözünün başı da, ayağı da ancaq "nümunəvi" sözü ilə yekunlaşırdı. Onun "Haradan başlanır vətən?" inşa yazısındakı bu cümlə hələ də yadımdadı:

Vətən sərhəddən başlanır. Ona görə də sərhədçi oldu.

O zaman hər yerdə bu fikri nümunə çəkirdi Xanım müəllimə.

-Eldar həm də məktəb futbol komandamızın qapıçısı idi. Hələ heç kəs onun qapısına qol vura bilməmişdi.

Beləcə də dedi Xanım müəllimə...

-O, müstəqilliyimiz uğrunda həlak oldu. Canını doğma Qarabağımıza qurban verdi. Azərbaycan xalqının və onun prezidentinin etimadını canla-başla

doğrultdu. Belə oğullarımıza eşq olsun. Əziz həmvətənlər, siz yaxşı bilirsiniz ki, heç nə unudulmur, heç nə yaddan çıxmır. Hamısı xalqın yaddaşındadı.

Xanım müəllimə Eldarın axırıncı cümləsini məktəbin girişində iri bir lövhədən yazıb asmışdı. Ağdərə uğrunda gedən döyüşlər Qarabağ müharibəsinin taleyini birdəfəlik həll edəcəkdi. Eldar bunu yaxşı bildiyindən çox ayıq-sayıq dayanırdı... döyüş sərhədində bütün varlığı ilə vuruşurdu. Yaxşı döyüşmək üçün gərək silahını saz saxlayasan, onun nazını çəkəsən. Son anda onunla qalacaqsan və son sözünü də ona deyəcəksən. Eldar avtomatı ilə yaman dost olmuşdu. Çox təcrübəliydi Eldar. Yüksək hərbi biliyə yiyələnmiş və böyük döyüş hazırlıgı keçmişdi. Tarix müəlliminin sərhədlərimiz vəəsgərlərimiz haqqında söhbətlərini tez-tez xatırlayırdı. Vətən sərhədlərini dəqiq müəyyənləşdirmişdi. Onu göz bəbəyi kimi qorumağı öz qəhrəman oğullarına tapşırmışdı.

Eldarın anasını tabutdan zorla ayırdılar. Ana qoşa əllərini tabuta uzadıb yanıqlı bir səslə qıyya çəkirdi:

Arazı ayırdılar,
Ayırıb doyurdular
Mən səndən ayrılmazdım,
Zülm ilə ayırdılar.

Ananın bu çağırışını cavabsız qoymaq olmazdı. Eldarı yaxşı tanıyan qapı qonşusu Mələk xala bu harayı cavablandırdı:

Əzizim qar-qamışa,
Sən də gəl qar, qamışa.
Yüz min insan neyləsin
Bir fələk qarğamışa?

Xanım müəllimə hökmən bu bayatıları yadında saxlayırdı. Sabahkı ədəbiyyat dərsində deyəcəkdi.

Hərdən Eldar elə bilirdi ki, döyüş də futboldu. O, yenə qapıçıdı. Döyüş sərhədini elə qorumaq lazımdır ki, düşmən keçə bilməsin. Keçdimi, uduzacağıq. Bizdən mərkəzdəkilər hücuma keçəndə sağ cinahdakılar bunu cavablayırdı. Soldakılar hücuma keçəndə sağdakılar onun səsinə səs verirdilər. Birdən qarşı səngərdən qəfil qalxan düşmən əsgəri Eldarın döyüş yoldaşını nişan aldı. Güllə açılan kimi Eldar özünü güllənin qabağına verdi. Bu dəfə açılan gülləni canı ilə tutdu Eldar. O, gülləni qapıdan keçməyə qoymadı. Qanlı sinəsini əllərilə qucaqlayıb dedi:

-Əziz qardaşım, güllə sənə dəymədi ki?

Saat 16:00-da Eldarı torpağa tapşırdılar. Dəfnə Sərhəd Qoşunlarının şəxsi heyəti, ictimaiyyət nümayəndələri, hərbi nazirliyin və komissarlığın əməkdaşları gəlmişdilər.

O gün Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə Məmmədov Eldar Harun oğlu Azərbaycanın Milli Qəhrəmanı adına layiq görüldü.

Xanım müəllimə səhər birinci saatdakı ədəbiyyat dərsini bu xəbərlə başlayacaqdı. Bu, onun əbədi qəhrəmanlıq dərsi olacaqdı.

SAÇLARDA AĞARAN DƏRD

Fariz Şahməddin oğlu Babanlı
(1973-1993)

Az oldu
Oğul ömrü az oldu
Dərddən ağaran saçlar
Anam, qaralmaz oldu.

Qələmdaşım Güllü Tomarova bilirdi ki, şəhidlərlə bağlı (Dağlarda şəhid səsi) kitab hazırlayıram. Dedi ki, Güləmail xanım, mənim sizdən bir istəyim var. Mən də fikirləşmədən: "eşidirəm, xanım, arzu və istəklərinizi bildirin, gücüm çatan qədər yardımçı olaram"- dedim.

O, sözə başladı:

- Gürcüstan Respublikasının Rustavi şəhərində doğulub boya-başa çatmış Fariz Babanlı Qarabağ döyüşlərində qəhrəmanlıq tarixi yazıb vəən ali məqama –şəhidlik zirvəsinə ucalıb.

Güllü xanım fikrini tamamlamamış Farizin ailəsinə başçəkmək üçün plan qurdum. 11.08.2014-cü ildə Rustavi şəhərində Farizin ailəsi ilə görüşdük.

Farizin anası Gülhava xanım, atası Şahməddin kişi, oxuduğu 7 saylı orta məktəbin tərbiyəvi işlər üzrə direktor müavini Bəhmən İsayev və digər ailə üzvləri bizi mehribanlıqla qarşıladı.

Gülhava xanımın göz yaşının üzünə yox, qəlbinə axdığını və saçının qar kimi ağardığını ilk baxışda duydum. Eh... saçlarda ağaran dərdlər... Ürəyində bala dağından qara xallı yaranın göynəyini hiss elədim...

Qaysaq tutmayan yaralar- ürək yarası, qan yarası, vətən yarası, bala yarası...

Nəmli gözlərdən ürəyə yağan yağışlar yaranı qaysaqlanmağa qoymaz... ey, bala yarası...

Ey siri-sirdaşı bilinməyən, bağlı-bağçalı dünya, kaş nə ayrılığın, nə də ölümün olaydı.

Beynimdə uğuldayan müəmmalar fikrimdə dolaşıqlıq yaratmağa çalışdı sanki...

Sağalmaz, yüz təbib, yüz loğman gələ,
Şəhid adlı köz-köz yaram var mənim.
Cismi - qanımı sən ürəkdə ara,
Yaralı olmayan haram var mənim?!

Beləcə, nitqim tutuldu, dondum, nə deyəcəyimi unutdum. Ata-anaya təskinlik vermək üçün hansı sözü tapıb deyəcəyimi ağlım kəsdirmədi. Yalnız şəhidin ruhuna etiram olaraq, haqqında nəsə yazmaq qərarına gəldim. Ancaq bu ağır yükü qələmin dili iləçəkib apara biləcəyəmmi görəsən?! Gücüm

çatacaqmı?! Bilmirəm... Amma özümə söz verdiyim üçün sözümə sahib duracağam. Nə qədər ağır olsa belə...

Çar-naçar bu ağrılarla, Farizin ata-anası ilə xeyli söhbət elədik...

-Laçın rayonunun Ərikli kəndində şəhid oldu balam, - deyə Gülhava xanım sözə başladı.

Bu səs, şəhid ananın səsi,

Sehrli bir səs... gah məni odlu-alovlu müharibənin içində saxlayır, gah qulaqlarımda əks-səda verir, gah daş olub ürəyimdən asılır, gah bu ağırlıq içərimdə hay-haray, şüvən qoparır, gah da şaxtalı külək olub qanıma işləyir, sanki duyğularımı daşlaşdırıb dondurur...

Bəzən də bu səs üzərimə, ürəyimə, qələmimə düşən ağırlığı götürür... qələmim hönkürür, göz yaşı ilə yazır...

Axı bu yol döyüş yolu,
Təhlükədi sağı-solu,
Dərdin alım şəhid oğlu!
Ağlama, ana ağlama!

Dərd əlindən çağlayıram
Şəhidə yas saxlayıram
Özüm üçün ağlayıram.
Ağlama, ana ağlama!

Yurdun borcu var boyunda,
Bu torpağımın qoynunda,
Uduzmaram bu oyunda,
Ağlama, ana ağlama!

Çaş-baş düşür dərdli fikirlərim, oyan, ozan qardaş, oyan, bir layla-bayatı de. Axı mənim şəhidlərimin beşiyi başında saz çalınıb, divarından qılınc asılıb.

Cünun ol, Koroğlu dəlilərinin bir havasını - "Misri"ni çal, çal, aşıq qardaş, çal...

Saz qılıncla qoşa dayansın, qoy şəhidlərimi oxşayıb, ruhlarını şad etsin, çal... nə yazım, nə yazım axı, göz yaşlarım, qələmimin göz yaşına qovuşub. Bax bu şəhiddən yaz, yaz ki, onların ruhları rahatlıq tapsın deyir. O gün olsun ki, qələbədən yazaq, şəhid balam, Fariz balam.

Bir daha xatırladım ki, Fariz Babanlı 1973-cü ilin isti yay havasında, - qora bişirəndə, - avqust ayının 13-də Gürcüstan Respublikasının Rustavi şəhərində dünyaya göz açıb. Ailədə ikinci uşaq olub. Anası deyir ki, bu uşaq yaşıdlarından fərqlənirdi, həm diribaş, həm də dəli-dolu idi. Xalq, vətən, torpaq üçün böyümüşdü elə bil. 1980-ci ildə Rustavi şəhərində 12 saylı məktəbə qədəm qoymuşdu. Həmin məktəbdə 4-cü sinfə qədər oxuyandan sonra, orta təhsilini 7 saylı məktəbdə başa vurmuşdu.

O zaman sinif rəhbəri olmuş, hazırda tərbiyəvi işlər üzrə direktor müavini işləyən Bəhram İsayev sözə qarışdı: - Elə o vaxtdan məktəbimiz beynəlmiləldir, Azərbaycan, rus və gürcü dilində olan bölmələrdə 17 millətin nümayəndəsi təhsil alır. O zaman da belə idi, indi də. Fariz dəçalışqan şagirdlərdən biri idi. Heyf ki, onun haqqında keçmiş zamanda danışırıq.

Məktəbdə idman dərsi mənə həvalə edilmişdi. Şagirdlərin sağlamlığı mənim üçün daha önəmli idi. Ona görə də vaxtdan səmərəli istifadə eləyirdim. Fariz idmanda da çevikliyi, xarici görkəmi, polad kimi bərkliyi, qabiliyyəti ilə bütün uşaqlardan seçilirdi. O, həmişə mənim köməkçim olub, ictimai işlərdə aktivliyi ilə fərqlənib.

1990-cı il "20 yanvar" hadisəsi ilə bağlı olaraq yardım lazım idi. O, şagirdlər arasında ciddi təbliğat apararaq deyirdi: "Biz xalqımıza kömək etməliyik, arxasında dayanmalıyıq, silaha sarılmalıyıq, vətən, torpaq üçün canmızı fəda etməliyik." "20 yanvar" hadisəsindən sonra Rustavidə erməni qonşusunu liftdə qoymuşdu bir dəfə. Deyirdi ki, bu qansızları bir-bir güllələsəm də azdır. Gərək kökünü kəsək bu vicdansızların. Farizdə erməni qəsbkarlarına qarşı dərin nifrət yaranmışdı. O, bir şəxsiyyət və bir vətənpərvər kimi yetişməklə yanaşı, həm dəəməksevər, zəhmətkeş bir oğul idi. O, 1991-ci ildə Rustavi şəhərində "Bina və qurğuların tikintisi və istismarı (SPT) ixtisası üzrə inşaat obyektində işləyib.

İnşaatçı olmaq arzusu onu Sumqayıtın Politexnik Texnikumuna gətirib çıxarıb. Tələbə olduğu müddətdə, yəni 1992-ci ildə hərbi qulluğa çağırılıb. Əsgərlik dövrünün ilk anında Bakı şəhərinin Bayıl qəsəbəsində hərbi polis kimi fəaliyyət göstərib. Sonra isə döyüş bölgələrinə göndərilib. Onun döyüş yolu odun, alovun içində Laçının qaynar nöqtələrindən keçib. Fariz Laçın rayonunun Ərikli kəndində komandir Mehdiyevin taborunda vuruşub. Bu qorxmaz vətən oğlu düşmənə qarşı amansızlığı ilə seçilib, vətənsevər əsgər kimi özünü göstərib. Yanvarın 5-i 1993-cü ildə Laçın rayonunun Ərikli kəndində qəhrəmancasına şəhid olub. Ölümündən sonra 17.03.1993-cü il tarixli qərarda torpaqlarımızın erməni quldurlarından azad edilməsi uğrunda həlak olmuş Babanlı Fariz Şahməddin oğlunun adının əbədləşdirilməsi məqsədi ilə Muğanlı kənd xəstəxanasına onun adı verilib. O, Ağstafanın şəhidlər xiyabanında dəfn olunub.

Allah rəhmət eləsin, qəbri nurla dolsun.

ŞƏHİD ANASI

Doğmaları şəhid olan
ana-bacılara müraciət:

Dərdin dağlara getməsin...
Dərdin dağlara getsə
Şəhid edərsən dağları,
Şəhid anası.
Dərdini döndər gülə,
Şəhid məzarını bəzəsin.
Dərdini döndər yelə,
Xoş bir soraq gətirsin.
Qələbə müjdəsi yetirsin
Şəhid ruhuna!
Dərdini döndər dilə,
Şəhidləri oxşasın
Şəhidlik zirvəsindən
Söz zirvəsinə qaldırsın
Şəhid anası,
dərdini
dağa göndərmə,
çəkə bilməz...
çəkə bilməz...
şəhid edərsən dağları
Şəhid anası.

ƏN SON DİLƏYİM BUDUR:
SON ANIMDA
ADIN DODAĞIMDA
ÖLƏM, VƏTƏN!..

***

Təbiət itkilərini -
qaytaran tək,
Kaş mən də itkilərimi
qaytara biləydim...

***

Mən tükənməz su dənizi...
gözlərimdən məzarlığa su daşıyıram...
toxum olub, yerəəkilmiş şəhidlərim,
yenidən cücərib...
Vətəni qorumaq üçün....

***

Kainat dəyişib,
məhşər günüdür,
özündən ağırdır
dünyanın dərdi.
Çəkə bilmir...
tərəzisi yox...

YAZ, QƏLƏM

İtirirəm hövsələmi, dözümü,
Günlər ötür, hər ömür gün düzümü.
Sənsiz keçən gecəmi, gündüzümü,
Axşamımı, səhərimi yaz, qələm.

Gecə oyaq qalmağımı yazmısan,
Necə ilham almağımı yazmısan,
Hərdən gülər, xoş çağımı yazmısan,
İndi isə kədərimi yaz, qələm.

Ey qələmim! Bağban ara bağıma,
Bağladılar yadlar qara bağıma.
Gedəcəyəm hökmən Qarabağıma!
Qarabağa səfərimi yaz, qələm.

Heç bilirsən nələr yazmaq istərəm?!
Qələbədən xəbər yazmaq istərəm!
Neçə - neçəəsər yazmaq istərəm,
Yazılmayan əsərimi yaz, qələm.

***

Oğlu ölüb
Ağı deyib oxşayır ana,
Ah, bu nə bəla, bu nə dərd
Tapıb deyə bilmirəm
Bu dərdin adını.
Bəlkə siz deyəsiniz,
Ey insanlar!

***

Bilmirəm qələmim
Nələri seçdi, nələri yazdı.
Onu bilirəm ki, yazdıqlarım,
Yazmadıqlarımdan azdı.

MÜNDƏRİCAT

Uğur həyatın nəşəsidir.....4
Bir damla göz yaşı.....6
Yazılmayan əsərimi yaz, qələm! 7
Söz ardı... 13
Qan yaddaşımız.....16
Azərbaycanım, yaşa! 17
Dağlarda şəhid səsi.....19
Ağstafa torpağı.....21
Sadıqlım mənim 23
Haydı, igidlərim, Vətən yaşasın!.....24
Siz, ey mənim yer üzündəyaşayan can dostlarım! 27
Vətən üçün şəhidlərimizoqədərdi ki...29
Analar... Analar...45
O, əsl qəhrəman idi.*Məmmədov Məmməd Qara oğlu* 47
72 gün. *Nuriyev Zabit Şamil oğlu*.....53
Sağ qalsa idi. *Əhmədov Əhməd Paşa oğlu*.....62
Xəyala dönən arzular. *Bayramov Rəhman Dursun oğlu* 66
Tarixi yaşadan həqiqətlər. *Bayramov Habil Şahvələd oğlu* 73
Anam da yox ağlaya. *Xələfov Qərib Telman oğlu*.....78
Xonçası bağlı qalanlar. *Ramizov Məcid Binəli oğlu*.....83
Mahir şücaətində.*Əfəndiyev Mahir Əhməd oğlu*.....86
Baharı qışa döndü. *Omarov Ariz Nəriman oğlu* 91
Atam kimi hərbçi olacağam. *İbrahimov Nazim Tofiq oğlu* 96
Vətən uğrunda. *Alıcanov Rafiq Cəfər oğlu* 101
Hara gedirsən belə..... 104
Vətəndir şərəfimiz. *Tağıyev Şahin Talıb oğlu*..... 112
Qarakənd göylərində. *Fəxrəddin İbrahim oğlu Şahbazov*..... 114
Qafqaz İslam Ordusunun90 illiyi münasibətilə..... 116
Gültəkin zirvəsi 120
Şəhid yaşında.*Hacımahmudova Qaratelin 65 illiyinə*..... 127
Yuxumdan itkin düşüb.*Şahlar Əvəz oğlu Şükürov* 144
Qəhrəmanlıq dərsi. *Məmmədov Eldar Harun oğlununxatirəsinə*..... 155
Saçlarda ağaran dərd.*Fariz Şahməddin oğlu Babanlı* 160
Şəhid anası 166
Yaz, qələm..... 168

GĞLƏMAİL MURAD

DAĞLARDA ŞƏHİD SƏSİ

Nəşriyyatındirektoru:	***Ceyhun Xəlilov***
Dizayner:	*Vüsalə Qəribova*
Operator:	*Türkanə Həsənova*
Texniki Redaktor:	*İlahə Lələyeva*

Çapa imzalanmışdır:13.12.2014
Kağız formatı:60/84Ofset kağızı 1/16.
Fiziki ç.v.10,5. Tiraj:250
Kitab "Bilik" nəşriyyatına təqdim olunmuş
hazır diapozitivlərdən çap olunmuşdur.
Ünvan: Sumqayıt şos.., 13-cümkr. Nizami küç..
E-Mail: bilik-2008@mail.ru
Tel.: (012) 408 39 51; (018) 656 50 42.